KHAZAR REVIEW

# XƏZƏR XƏBƏR

ELMİ-KÜTLƏVİ, ƏDƏBİ-PUBLİSİSTİK TOPLU

№ 349 MART 2016



khazar-review.khazar.org
AYLIQ DƏRGİ
ISSN 2218-2772







# “XƏZƏR”DƏ NOVRUZ ŞƏNLİYİ



Martın 18-də Xəzər Universitetində universitet rəhbərliyinin, professor-müəllim heyətinin və tələbələrin iştirakı ilə bayramı şənliyi keçirildi.

Universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı iştirakçıları Novruz bayramı, həmçinin Xəzər Universitetinin qurulmasının 25 illiyi münasibətilə təbrik etdi. Universitetin rektoru Hassan Niknafs bayram tonqalını yandırdı.

Bayram şənliyi tələbələrin hazırladığı konsert proqramı ilə müşayiət olundu.

# İÇİNDƏKİLƏR


Hamlet İsaxanlının Ankaraya işgüzar səfəri ........ 4
Mədəniyyət mərkəzində konsert ........ 8
ABŞ səfiri Robert Sekuta Xəzər Universitetində ........ 10
Xəzər Psixoloji Xidmət Mərkəzinin açılışı ........ 12
Türkiyəli qonaqlar "Xəzər"də ........ 14
8 Mart - Beynəlxalq Qadınlar Günü ........ 16
Universitet xəbərləri ........ 18
AMEA Nizami adına Ədəbiyyat İnstitutu xəbərləri ........ 20
Xocalı faciəsi ........ 22
Əcnəbi tələbələr üçün oriyentasiya sessiyası ........ 32
Fələstin səfiri Xəzər Universitetində ........ 43
"Dünya" xəbərləri ........ 44
Polşa səfiri Xəzər Universitetində ........ 51
NDU xəbərləri ........ 54
Hamlet İsaxanlının Misirə işgüzar səfəri ........ 58
Multimedia Mərkəzinin əməkdaşları Lənkəranda ........ 64
"Uşaqlıq xatirələrimdən mənə yalnız patron, tüfəng qaldı..." (*Xalidə Xalid*) ........ 66
Поэзия ........ 74
*Sevinc Şəfiyeva*. Davamlı inkişaf kontekstində ekoloji iqtisadiyyat ........ 76
Dünyanın ən gözəl kitabxanaları ........ 78



1995-ci ilin yanvarından nəşr olunur

**Təsisçi:** Xəzər Universiteti

**Baş redaktor:** Hamlet İsaxanlı

**Baş redaktor müavini:** Əlirza Balayev

**Redaksiya heyəti:**
Camal Mustafayev
Əjdər Ağayev
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

**İngilis dilində mətnlərin redaktoru:** Marta Lauri

**Rəssamı:** Mir Rafiq Əbdülrəhimov

**Kompüter tərtibatçısı:** Nigar Aydəmirova

**Foto:** Multimedia Mərkəzi

XƏZƏR UNİVERSİTESİ · BAKI · 1991

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published since January 1995

**Founder:** Khazar University

**Editor-in-chief:** Hamlet Isaxanli

**Associate editors:** Alirza Balayev

**Editorial members:**
Jamal Mustafayev
Ajdar Aghayev
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

**Editor of English Texts:** Martha Lawry

**Design by:** Mir Rafig Abdulrahimov

**Computer graphics:** Nigar Aydemirova

**Photo:** Multimedia Centre



# HAMLET İSAXANLININ ANKARAYA İŞGÜZAR SƏFƏRİ



## HAMLET İSAXANLI "BEYNƏLXALQ XOCALI PANELİ"NDƏ ÇIXIŞ ETMİŞDİR

Fevralın 23-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Ankara şəhərində Qloballaşan Azərbaycan Sivil İnkişaf Mərkəzi (QASİM), Azərbaycan "Yeni Çağ" analitik İnternet qəzeti və XEBER365.COM xəbər portalının təşkilatçılığı ilə Xocalı Soyqırımının 24-cü anım gününə həsr olunmuş beynəlxalq paneldə iştirak etdi. Panelin açılışında hər iki ölkə rəsmiləri, millət vəkilləri, nazirlər, diplomatlar, elm və ictimaiyyətin nümayəndələri, Ankarada yaşayan və təhsil alan azərbaycanlılar və çoxlu sayda Türkiyə vətəndaşları iştirak etdilər.

H. İsaxanlı panel iştirakçılarına Xocalı soyqırımını həyata keçirən Ermənistan və bu işdə ona dəstək verən dövlətlərin, ümumiyyətlə soyqırımı törədənlərin mənfur niyyətlərini panel iştirakçılarına açıqladı.

Paneldə Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli, universitetin Türkiyə təmsilçiləri Hüseyin Ayhan və Murat Yaşar Ekinci də iştirak etdilər.

Tədbir haqqında "Azad Azərbaycan" (ATV) teleradio şirkətinin ***atv.az*** internet səhifəsində

*(http://news.atv.az/az/world/61284-ankarada-mohtesem-beynelxalq-xocali-paneli-bas-tutdu) və publika.az(http://pubrika.az/p/126895)* xəbər saytında məlumat verilmişdir.



# TUBİTAK - "XƏZƏR": ƏLAQƏLƏR GENİŞLƏNƏCƏK

Fevralın 23-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Ankarada TUBİTAK-ın (Türkiyə Elm və Texnaloji Araşdırma Qurumu) başqanı professor A. Arif Ergin, başqan yardımçısı professor Orkun Hasekioğlu, Baş katib Arif Koyuncu və Xarici əlaqələr şöbəsinin müdiri Zeynep Arzıman Büyükbodukla görüşdü. Görüşdə Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli iştirak edirdi.

Görüş zamanı TUBİTAK və Xəzər Universiteti, Avrasiya Akademiyası arasında gələcəkdə həyata keçirilə biləcək maraqlı elmi layihələrin gerçəkləşdirilməsi məsələləri müzakirə edildi. H.İsaxanlı TUBİTAK başqanı A. A.Erginə Xəzər Universitetinin xüsusi hədiyyəsini təqdim etdi və səmimi görüşə görə dərin təşəkkürünü bildirdi, TUBİTAK rəhbərliyini Bakıya dəvət etdi.





# TÜSEB BAŞQANI İLƏ SÖHBƏT

Fevralın 24-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Ankara şəhərində Türkiyə Cümhuriyyətinin Baş naziri tərəfindən vəzifəyə yeni təyin edilən TÜSEB (Türkiyə Səhiyyə İnstitutları Başqanlığı) başqanı professor Fahrettin Keleştimurla görüşdü. Görüşdə Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli də iştirak edirdi.

H. İsaxanlı F. Keleştimuru yeni – mühüm vəzifəyə təyin edilməsi münasibətilə təbrik edərək, ona Xəzər Universitetinin hədiyyəsini təqdim etdi.

Görüş zamanı F. Keleştimur TÜSEB-lə Xəzər Universiteti arasında bundan sonra da əlaqələrin daha da genişləndirilməsinin vacibliyini vurğuladı.





## AK PARTİYANIN ANKARA ŞƏHƏR BAŞQANI İLƏ GÖRÜŞ

Fevralın 24-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı AK Partiyanın Ankara Şəhər başqanı Mustafa Nedim Yamalı ilə görüşdü. Görüş zamanı H.İsaxanlı M.N.Yamalıya Xəzər Universiteti və Ankarada Xocalı soyqırımının 24 illiyinə həsr edilmiş tədbir haqqında geniş məlumat verdi. Görüşdə başqan yardımçısı Saliha Dönmez Göğebakan, İdarə Heyətinin üzvləri Vahdettin Elbay, Necmettin Ünal, Xəzər Universitetinin Türkiyə təmsilçiləri Hüseyin Ayhan, Murat Yaşar Ekinci və Universitetin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli iştirak etdilər.





# MƏDƏNİYYƏT MƏRKƏZİNDƏ KONSERT





Martın 1-də Xəzər Universitetinin Mədəniyyət mərkəzində Musiqi və incəsənət departamentinin müdiri, pianoçu Zulfiyyə Sadıqovanın rəhbərliyi ilə universitetin Kamera orkestrinin konserti oldu. Konsertdə Xəzər Universitetinin tasisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor, şair Hamlet İsaxanlının sözlərinə yazılmış mahnılar Xəzər Univer-sitetinin vokal müəllimi Məhsəti Cabbarova və Təhsil fakültəsinin magistri Elçin Feyzullayevin ifasında səsləndi.



Konsertdə, həmçinin, M. Cabbarova və universitetin doktorantı Marta Lauri H. İsaxanlının "Ziyarət" poemasından "Demişəm" şeirini sazda "Gödəkdonu" havasında duet şəklində, Uşaq və Yeniyetmə Yaradıcılıq Musiqi Mərkəzinin tələbəsi Kənan Gülməmmədov Minayə Azaflının H. İsaxanlıya həsr etdiyi şeiri sazda "Paşaköçdü" havasında ifa etdilər.

Konsert zamanı musiqiçilər və iştirakçılar H. İsaxanlını ad günü münasibətiə təbrik etdilər.







# ABŞ SƏFİRİ ROBERT CEKUTA XƏZƏR UNİVERSİTETİNDƏ

Martın 4-də Xəzər Universitetinin Siyasi elm və beynəlxalq münasibətlərlər departamenti beynəlxalq inteqrasiya prosesləri çərçivəsində ABŞ Azərbaycan münasibətlərini müzakirə etmək məqsədilə ABŞ-ın Azərbaycandakı səfiri Robert Cekuta`nı universitetə dəvət etmişdi. Səfir Sekuta universitet tələbələri və işçi heyəti ilə ABŞ-Azərbaycan münasibətlərində qarşılıqlı maraqlar, dəyərlər və məqsədlər haqqında danışdı.

Sonra departamentin müdiri Dr. Muxtar Hacızadənin moderatorluğu ilə sual-cavab sessiysı keçirildi. Tələbələr ABŞ-ın xarici siyasətinin müxtəlif aspektləri haqqında, eləcə də, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair Minsk Qrupunun səmərəsiz fəaliyyətinin səbəbləri, ABŞ-ın Minsk Qrupunun həmsədri kimi rolu və digər beynəlxalq mövzular haqqında suallar verdilər.

Tədbirdən öncə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı səfir Robert Cekuta`nı, eləcə də, İctimaiyyətlə əlaqələr şöbəsinin müşaviri Stephen Guice`ni, səfirliyin Təhsil məsələləri üzrə mütəxəssisi Raminə Mürşüdovanı qəbul etdi. Profesor İsaxanlı Xəzər Universitetinin tarixi və Amerika institutları ilə əlaqələri haqqında səfirə məlumat verdi. O, həmçinin, səfirə Xəzər Universitetinin yaradılması prosesi haqqında "Xəzərin sorağında" və "Əcnabilər üçün başlanğıc səviyyədə Azərbaycan dili" kitablarını hədiyyə etdi.







# US AMBASSADOR ROBERT CEKUTA VISITS KHAZAR

On March 4, the Department of Political Science and International Relations hosted the U.S. Ambassador to Azerbaijan, Robert Cekuta, to discuss U.S.-Azerbaijan relations in the context of international integration processes. Ambassador Cekuta presented his opinion on the most important aspects of the U.S. relationship with Azerbaijan including the security, democracy, and economy/energy fronts. He emphasized the importance of security, rule of law, and democracy for Azerbaijan's long term stability and prosperity. He expressed his sympathy for the 20 percent occupation of the Azerbaijani territories and conveyed his understanding of the security problems for Azerbaijan deriving from the occupation. Ambassador Cekuta also spoke about mutual interests, values, and goals in the US-Azerbaijan relations.

In the subsequent question and answer session moderated by Dr. Mukhtar Hajizada, Department Chair, questions were asked on various aspects of the US foreign policy as well as the U.S. engagement in the international integration processes and regional cooperation in North America. The reasons for the Minsk Group's ineffectiveness in resoving the Armenian-Azerbaijani Nagorno Karabagh conflict, the role of the U.S. as a Minsk Group co-chair, U.S.-China relations, the U.S. reaction to the Russian engagement in Ukraine, Georgia and Moldova, the instability in Afghanistan and Iraq, and the U.S. reaction to the Turkish policy in the Middle East were topics of interest in the questions asked by the student body of the Department of Political Science and International Relations.

Before the event, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, received the Ambassador Robert Cekuta as well as Public Affairs Officer Stephen Guice and Education Specialist at the Embassy Ramina Murshudova. Professor Isaxanli informed the Ambassador about Khazar University's history of relationships with American institutions. He also presented two books to the ambassador – one discussing the establishment process of Khazar University- "In Search of Khazar" and one on Azerbaijani language for foreigners at the beginning level.








# XƏZƏR PSİXOLOJİ XİDMƏT MƏRKƏZİNİN AÇILIŞI

Fevralın 29-da Xəzər Universitetində Xəzər psixoloji xidmət mərkəzinin açılışı ilə əlaqədar təqdimat keçirildi. Təqdimat mərasimində mərkəzin koordinatoru Mələk Kərimova mərkəzin hansı zərurətdən ortaya çıxdığı və hansı xidmətləri həyata keçirəcəyi barədə ətraflı məlumat verdi. O, bu mərkəzin tələbələrə və kənar şəxslərə psixoloji xidmət və dəstək vermək üzrə Xəzər Universitetinin rektorunun əmri əsasında yaradılan strukrur mərkəzlərdən biri olduğunu qeyd etdi.





Mərkəzin universitetin nizamnaməsi və daxili qaydaları əsasında fəaliyyət göstərəcəyini bildirən M. Kərimova mərkəzdə psixoloji seminarlar, kurslar, təlimlər, konfranslar təşkil ediləcəyini, elmi tədqiqat işləri aparılacağını, universitetin tələbələrinə (ödənişsiz) və eləcə də, kənar şəxslərə (ödənişli) psixoloji xidmət göstəriləcəyini qeyd etdi.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı mərkəzin açılışı ilə əlaqədar tövsiyələrini bildirdi.

Təqdimat mərasimində iştirakçıların sualları cavablandırıldı və struktur bölmələr arasındakı işbirliyinin vacibliyi vurğulandı.





## TÜRKİYƏLİ QONAQLAR "XƏZƏR"DƏ

Martın 4-də Türkiyənin tanınmış tarixçi alimi professor İlber Ortaylının və iş adamı Əli Poladın Xəzər Universitetinin tələbələri ilə görüşü keçirildi. Görüşü giriş sözü ilə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı açaraq, İ.Ortaylının və iş adamı Ə. Poladın həyat və yaradıcılığı haqqında məlumat verdi.

Sonra İ. Ortaylı və Ə. Polad tələbələr qarşısında çıxış etdilər və salona toplaşan çoxsaylı tələbələrin suallarını cavablandırdılar.

İ. Ortaylıya Xəzər Universitetinin hədiyyəsi təqdim edildi.

Martın 4-də ***sputnik.az*** saytı tədbir haqqında xəbər yaymışdır. Xəbəri bu linkdən oxumaq olar:

***http://sputnik.az/science/20160304/404036733.html***



# TURKISH GUESTS AT KHAZAR



On March 4, Turkey's world-famous historian Professor Ilber Ortayli and businessman Ali Polad visited Khazar University and met with students. Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, opened the meeting and introduced the guests to the audience.

Then Prof. Ortayli and A. Polad spoke to students and answered their questions.

Prof. Ortayli was given a Khazar University gift. Then group photographs were taken.

An article about this meeting was published on sputnik.az on March 4. The full text of the article is available (in Azerbaijani) at the following link:

*http://sputnik.az/science/20160304/404036733.html*









# 8 Mart - Beynəlxalq Qadınlar Günü











Martın 7-də Xəzər Universitetində 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə bayram şənliyi keçirildi.

Universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı qadınları təbrik edərək, onların kollektivdəki səmərəli əməyindən danışdı, gələcək fəaliyyətlərində və şəxsi həyatlarında onlara uğurlar arzuladı. H. İsaxanlı, həmçinin, universitetin müəllimi, görkəmli xalça rəssamı Afaq Kərimovaya Avrasiya Akademiyasının kubok və medallarının dizaynını yüksək səviyyədə hazırladığına görə təşəkkürünü bildirdi və ona xüsusi sertifikat və gül dəstəsi təqdim etdi.

İştirakçılara Təhsi fakültəsi tələbələrinin hazırladıqları musiqi nömrələri və səhnəciklər, Musiqi və incəsənət departamentinin müdiri, pianoçu Zülfiyyə Sadıqovanın rəhbərliyi ilə universitetin kamera orkestrinin konsert proqramı təqdim olundu, Təhsil fakültəsinin magistr tələbəsi Elçin Feyzullayev mahnılar ifa etdi və öz şeirlərini oxudu.

Bayram şənliyi xoş əhval-ruhiyyə ilə başa çatdı.









## MİSİR MƏDƏNİYYƏT VƏ TƏHSİL ƏLAQƏLƏRİ MƏRKƏZİNDƏ

Xəzər universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı fevralın 29-da Misir Ərəb Respublikasının Azərbaycandakı Səfirliyinin Mədəniyyət və Təhsil Əlaqələri Mərkəzinin müdiri Əhməd Sami Elaydi ilə görüşüb. Əhməd Sami Elaydi mərkəzin Azərbaycanda fəaliyyəti barədə ətraflı məlumat verib və iki ölkə arasında mədəni əlaqələrin genişlənməsində mərkəzin rolundan danışıb.

Hamlet İsaxanlı Mərkəzin Azərbaycanın elm, təhsil ocaqları ilə əməkdaşlığının əhəmiyyətini vurğulayıb.

Eyni zamanda, Xəzər Universiteti ilə Misir universitetləri arasında müqavilələrin bağlanması, birgə elmi konfransların keçirilməsi, Xəzər Universitetində Misir mədəniyyət gününün qeyd edilməsi və digər məsələlər barədə müzakirələr aparılıb.

Görüş haqqında ***apa.az*** xəbər saytında (*http://az.apa.az/news/417805*) və "Həftə içi" qəzetinin ***hafta.az*** veb səhifəsində (*http://hafta.az/index2.php?m=yazi&id=173528*) məlumat verilmişdir.

## HAMLET İSAXANLIYA HƏSR OLUNMUŞ VERİLİŞ

Martın 1-də İctimai radioda Xəzər Universitetinin təsiçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının həyat və yaradıcılığı, xüsusilə, onun poeziyası haqqında bir saat on dəqiqəlik veriliş efirə getdi. Verilişdə H. İsaxanlı ilə müsahibə də mühüm yer tuturdu. H.İsaxanlı verilişdə öz şeirlərindən bir neçəsini səsləndirdi. Veriliş efirə getdiyi müddətdə dinləyicilər H.İsaxanlının sözlərinə yazılmış mahnıları dinləmək imkanı da əldə etdilər.

Proqramda şair, yazıçı və publisist İmir Məmmədli də Hamlet İsaxanlı barəsində öz fikirlərini dinləyicilərlə bölüşdü.

## TƏHSİL KOMİSSİYASI LƏĞV OLUNDU

Martın 9-da Prezident İlham Əliyev Prezident yanında Təhsil üzrə Komissiyanın ləğv olunması haqqında sərəncam imzalamışdır. Həmin komissiya 2005-ci ildə İ.Əliyevin sərəncamı əsasında yaradılmışdı.

Qeyd edək ki, ləğv olunan qurumun üzvlərindən biri də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı idi.

Xəbəri tam şəkildə bu link vasitəsilə oxumaq olar:
http://azertag.az/bolme/official_documents_orders

## TƏHSİL NAZİRLİYİNİN KOLLEGİYA İCLASINDA

Martın 11-də Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiya iclası keçirildi. İclasın gündəliyinə müxtəlif məsələlər daxil edilmişdi.

Kollegiya iclasında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı da iştirak edirdi. H.İsaxanlı müzakirə olunan məsələlərlə bağlı iki dəfə çıxış etdi.

## "ELM ÜÇBUCAĞI"NDA "GİLQAMEŞ DASTANI"

Fevralın 28-də İctimai TV-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının "Elm üçbucağı" proqramının növbəti verilişi oldu. Veriliş "Gilqameş dastanı" mövzusuna həsr olunmuşdu.

Verilişdə universitetin əməkdaşları da dinləyici qismində iştirak edirdilər.

Veriliş martın 13-də və 27-də təkrar nümayiş etdirilmişdir.

## HAMLET İSAXANLININ SÖZLƏRİNƏ YAZILMIŞ MAHNI "YENİ GÜN"DƏ SƏSLƏNDİRİLDİ

Martın 11-də "İctimai" televiziyanın "Yeni gün" proqramı efirə getdi. Proqramda bəstəkar Tahir Əkbər və müğənni Azər Zeynalov da iştirak edirdilər.

Veriliş zamanı sözləri Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlıya məxsus olan "Rübailər" və ya" Mənə ayrılan vaxt" mahnısı səsləndirildi. Bəstəkar Tahir Əkbər Hamlet İsaxanlının yaradıcılığı haqqında məlumat verdi.



# "XƏZƏR"ə TƏŞƏKKÜR MƏKTUBU

YEDİTEPE ÜNİVERSİTESİ HASTANESİ

Sayın Prof. Hamlet İSAXANLI

Doğu güzellikleri içerisinde bir inci dizisi gibi yapılmış ve korunmuş BAKU'ya gelmek olasılığını bize yarattığınız için size sonsuz teşekkürlerimizi sunuyoruz. Khazar Üniversitesinde ki merasimde ve ertesi günkü dersimde tanıştığımız çeşitli fakülte azaları ve nöroşirurjiyenler hatıramızı zenginleştirdiler.

BAKUnün muhteşem tarihi mimarileri ve yepyeni postmodern yapılarla nasıl sinergetik birleştikleri görmek bizi çok şevklendirdi.

Kıtalar arasında biricik geolojik-geografik ortamda ve çeşitli kültürlerin etkileriyle asırlar boyunca büyük kültürel evrimler geçirmiş olan AZERBEYCAN özel kültür benliğinin korunmuş olmasına çok sevindik. Evinizde bizi misafir ettiğinizde geçmiş ve gelecekteki gelişmeleri kısa fakat uz açıklamanız görüşmelerimizi yönlendirdi.

Küresel sosyal dinamizmin son yarım asırda yepyeni boyutlara ulaştığı bir dönemde EURASİA AKADEMİSİNİN temellerini atarak küresel kültürel bağlılıkların hiçbir an kopmadıklarını, hatta gittikçe daha olgunlaşıp derinleştiklerini kanıtladınız.

Küremizin 8 milyarlık toplumu yeni bir "Renaissancen bekliyor; EURASİA AKADEMİSİ'nin değerini takdir ettiğim için önerdiğiniz üyeliği kabul ettim.

Size ve ailenize saygılar sunarım.

**Prof. Dr. Gazi YAŞARGİL**

*09.03.2016*

"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU



# MACARISTAN SƏFİRİ İLƏ GÖRÜŞ

Macarıstanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri İmre Lasloçki və Azərbaycan Dillər Universitetinin macar dili müəllimi, filologiya üzrə fəlsəfə doktoru Edina Dalloş fevralın 16-da Nizami adına Ədəbiyyat İnstitutunun qonağı olublar.

Qonaqları qəbul edən AMEA-nın vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli Azərbaycan-Macarıstan elmi əlaqələrindən danışıb. Son dövrlər sürətlə inkişaf edən Azərbaycan-macar əlaqələrinin mədəni, iqtisadi, siyasi sahələrlə yanaşı elmi-ədəbi istiqamətdə də əhəmiyyətindən bəhs edən akademik İsa Həbibbəyli ölkələrimiz arasında ədəbiyyatşünaslıq əlaqələrinin də genişləndiyini vurğulayıb. Təsadüfi deyil ki, Nizami adına Ədəbiyyat İnstitutunda gənc doktorant Rəna Cahangirli "Azərbaycan-Macar ədəbi əlaqələri" mövzusunda fəlsəfə doktorluğu üzrə tədqiqat aparır.

Səfir İmre Lasloçki Macarıstanın Balaşi İnstitutu və təmsil etdiyi ölkənin Xarici İşlər Nazirliyi adından Nizami adına Ədəbiyyat İnstitutu ilə birgə Macarıstan Elmlər Akademiyasının banisi İştvan Seçenin 225 illik yubileyinə həsr olunmuş birgə türkoloji simpoziumun keçirilməsi təklifi ilə çıxış edib. Səfirin təklifini yüksək qiymətləndirən akademik İsa Həbibbəyli tədbirin yüksək səviyyədə təşkil ediləcəyini və bu simpoziumun macar-Azərbaycan ədəbi əlaqələrinin inkişafına mühüm təsir göstərəcəyini qeyd edib. Aprelin 15-də keçirilməsi qərarlaşdırılan simpoziumda Azərbaycan alimləri ilə yanaşı Macarıstanın Seqed Universitetindən dəvət olunmuş görkəmli türkoloqlar da iştirak edəcəklər.

Qonaqları başçılıq etdiyi elmi-tədqiqat müəssisəsi ilə tanış edən akademik İsa Həbibbəyli görüşün sonunda Macarıstan təmsilçilərinə Nizami adına Ədəbiyyat İnstitutu adından xatirə hədiyyələri təqdim edib.





# BİRİNCİ TÜRKOLOJİ QURULTAYIN 90 İLLİYİNƏ HƏSR OLUNAN ELMİ SESSİYA

Martın 3-də Nizami adına Ədəbiyyat İnstitutunun Elektron akt zalında Birinci Türkoloji Qurultayın 90 illiyinə həsr olunan elmi sessiya keçirilib.

Sessiyada AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli Birinci Türkoloji Qurultayın tarixi əhəmiyyətindən və fəaliyyətindən danışıb. Akademik İsa Həbibbəyli bildirib ki, 1926-cı il fevralın 26-dan martın 6-dək Bakıda keçirilən qurultay türk xalqlarının, o cümlədən Azərbaycan xalqının mədəni həyatında müstəsna rol oynayıb. Birinci Türkoloji Qurultay dövrünün möhtəşəm hadisələrindən biri olub,Burada çox mühüm ortaq məsələlər müzakirə edilib.Türkdilli xalqlar içərisində ilk dəfə ölkəmizdə keçirilən qurultayda Azərbaycanla yanaşı, Türkiyə, Macarıstan, Tatarıstan, Almaniya və digər ölkələrdən geniş tərkibdə nümayəndə heyəti iştirak edib, XX əsrdə türkologiyaya ən geniş baxış bu qurultayda nümayiş olunub. Bu mötəbər tədbirin formatında ədəbiyyat, tarix, folklor, etnoqrafiya və digər məsələlər geniş mənada türkoloji baxışın tərkib hissələri kimi təqdim olunub. Eyni zamanda, burada türk xalqlarının inkişafı və onların həyatında mühüm rol oynayan bir sıra qərarlar qəbul edilib. Bunların içərisində latın əlifbasına keçidlə bağlı olan qərarı xüsusi qeyd etmək lazımdır. Birinci Türkoloji Qurultay türk xalqlarının mədəni inteqrasiyasında, milli-mənəvi birliyinin möhkəmlənməsində çox böyük əhəmiyyətə malik olan tarixi hadisədir.

Akademik İsa Həbibbəyli Birinci Türkoloji Qurultayın 90 illik yubileyinin keçirilməsi haqqında Prezident İlham Əliyevin 2016-cı il 18 fevral tarixli Sərəncamını yüksək dəyərləndirib. Bildirib ki, bu il Bakıda türk xalqlarının, o cümlədən Azərbaycan xalqının mədəni həyatında müstəsna rol oynayan Birinci Türkoloji Qurultayın 90 illik yubileyi dövlət səviyyəsində qeyd olunacaq və bununla bağlı AMEA-da bir sıra tədbirlər keçiriləcək.

Tədbirdə AMEA-nın müxbir üzvü Möhsün Nağısoylu "Birinci Türkoloji Qurultayın çağırışları və qarşıda duran vəzifələr", akademik Teymur Kərimli "Birinci Türkoloji Qurultayın fəxri nümayəndəsi Əli bəy Hüseynzadə" mövzularında məruzələrlə çıxış ediblər. Məruzələrdə qurultayın tarixindən, fəaliyyətindən və əhəmiyyətindən danışılıb.

Vurğulanıb ki, Türkoloji Qurultay türk xalqlarının mədəni inteqrasiyasında yeni mərhələnin təməlini qoymuş diqqətəlayiq hadisələrdəndir. Səkkiz gün davam edən bu mötəbər tədbirdə müxtəlif ölkələrdən 131 nümayəndə iştirak edib, 17 iclas keçirilib, yeddi əsas problem müzakirə olunub və ümumilikdə 38 məruzə dinlənilib. Qurultayda əsas müzakirəyə çıxarılan ortaq türk xalqalrının dili, tarixi və ədəbiyyatı məsələləri bu gün də öz aktuallığını qoruyub saxlayır. Qeyd olunub ki, bu ilin oktyabrında ölkəmizdə Birinci Türkoloji Qurultayın 90 illiyinə həsr olunan konfrans keçiriləcək.

Tədbirdə elmi ictimaiyyətin və kütləvi informasiya vasitələrinin nümayəndələri də iştirak ediblər.



# UNİVERSİTETDƏ “XOCALI SOYQIRIMI” HƏFTƏSİ KEÇİRİLDİ

Fevralın 23-dən başlayaraq Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimləri mütəmadi olaraq “Xocalı soyqırımı” mövzusunda tələbələri məlumatlandırmışlar. **“Xocalı qırğını”** kitabının müəllifi Nəsiman Yaqublu tələbələr qarşısında çıxış edərək, erməni terrorunun dəhşətlərini tələbələrə bir daha xatırlatmışdır.

Daha sonra müəllimlər – Roza Arazova, Ələkbər Ələkbərov, Ülviyyə Ağayeva, Günay Novruzova və Xaqan Balayev ermənilərin Azərbaycan xalqına qarşı yeritdiyi etnik təmizləmə siyasəti və bu siyasətin dəhşətli nəticəsi kimi Xocalı soyqırımının təfərrüatlarını tələbələrə çatdırmışlar.




# TƏLƏBƏLƏRİMİZ “ANA FƏRYADI” ABİDƏSİNİ ZİYARƏT ETDİLƏR

Fevralın 25-də Təhsil fakültəsinin tələbələri Xocalı faciəsinin növbəti anım günü ilə əlaqədar “Ana fəryadı” abidəsini ziyarət etdilər. Tələbələr abidənin önünə əklil qoyaraq, Allahdan bütün şəhidlərimizə rəhmət dilədilər.

# STUDENTS COMMEMORATE KHOJALY TRAGEDY

On February 25, students visited the “Mother's Cry” statue to commemorate Khojaly Memorial Day. The students placed a wreath in front of the monument and prayed for all those who were killed in the tragedy.

## ƏCNƏBİ TƏLƏBƏLƏRİMİZ XOCALI FACİƏSİNƏ HƏSR OLUNMUŞ TƏDBİRDƏ

Fevralın 25-də Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu Milli Azərbaycan Tarixi Muzeyində Azərbaycan ali məktəblərində təhsil alan əcnəbi tələbələr üçün Xocalı soyqırımının 24-cü ildönümünə həsr olunmuş anım tədbiri keçirdi.

Muzeyin direktoru akademik Nailə Vəlixanlı və Bilik Fondunun aparat rəhbəri İsaxan Vəliyev tədbiri giriş sözləri ilə açdılar və qonaqları salamladılar.

Tədbirdə Xocalı soyqırımına həsr olunmuş sənədli film nümayiş olundu, məktəblilər bu mövzuda şeirlər və mahnılarla çıxış etdilər. Tədbirin sonunda bütün tələbələr muzey turuna aparıldılar.

Xəzər Universitetinin Əfqanıstan, Kamerun, Çex Respublikası, Qambiya, İtaliya, Kuveyt, Pakistan, Fələstin, Polşa, Portuqaliya, Yəmən və Zimbabvedən olan tələbələri də tədbirdə iştirak edirdilər.



## INTERNATIONAL STUDENTS PARTICIPATE IN EVENT COMMEMORATING THE KHOJALY TRAGEDY

On February 25, international students from Khazar University participated in an event commemorating the 24th anniversary of the Khojaly massacre, a tragic event that took place in 1992. The event was organized by the Knowledge Foundation under the President of the Republic of Azerbaijan and took place at the National Museum of History of Azerbaijan.

Ms. Naila Valikhanly, the director of the museum, and head of the office at the Knowledge Foundation, Mr. Isakhan Valiyev, opened the event and welcomed all the guests.

The event consisted of a screening of a documentary about the Khojaly massacre and performances by local schoolchildren who recited poems and sang songs dedicated to the event. At the end of the event, all students were taken on a guided tour of the museum.

Full-time and exchange international students from Afghanistan, Cameroon, Czech Republic, Gambia, Italy, Kuwait, Pakistan, Palestine, Poland, Portugal, Yemen, and Zimbabwe who currently study at Khazar University participated in the event.

# XOCALI ŞƏHİDLƏRİNİN XATİRƏSİ YAD EDİLDİ




Fevralın 26-da Xəzər Universiteti Təhsil fakültəsinin tələbələrinin təşkilatçılığı ilə Xocalı soyqırımının 24-cü ildönümünə həsr olunmuş "Xocalı – unutmayaq, unutdurmayaq" adlı tədbir keçirildi. Tədbir Xocalı qurbanlarının və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş insanların ruhunu bir dəqiqəlik sükutla yad etməklə açıldı.





Təhsil fakültəsinin tələbələri Aytac Həsənova, Aygün İsmaylova, Nəzrin İsmayılova, Səkinə Ələkbərova, Müjgan Fərruxlu, Səidə Cabbarova, Suqra Əliyeva, Nərmin Ələkbərova, Pınar Məmmədzadə, Həmidə Azəri, Ayşən Mustafalı, Mustafa Əliəzov, Aytən Əsgərova, İradə Əhmədli və Fərid Həsənovun hazırladıqları ədəbi-bədii kompozisiyada Xocalı faciəsini əks etdirən videoçarx göstərildi, şeirlər oxundu, mahnılar səsləndirildi və səhnəcik oynanıldı.





Tədbirdə Xəzər Universitetinin Direktorlar və Qəyyumlar şurasının sədri professor Hamlet İsaxanlı, rektor Hassan Niknafs, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli, Təhsil fakültəsinin dekanı Elza Səmədova, Humanitar və sosial elmlər fakültəsinin dekani Cabir Xəlilov, İqtisadiyyat və menecment fakültəsinin dekani İnqilab Əhmədov,  Azərbaycan dili və ədəbiyyatı departamentinin müdiri Vurğun Əyyub iştirak edirdilər.





# XOCALI SOYQIRIMI 26 fevral 1992





## İRANLI TƏLƏBƏLƏR XOCALI FACİƏSİNƏ GÖRƏ BƏYANAT YAYDILAR

Fevralın 26-da Azərbaycanda təhsil alan iranlı tələbələr Xocalı faciəsinin 24-cü ildönümü ilə əlaqədar bəyanat yaymışlar. Qeyd edək ki, Azərbaycandakı iranlı tələbələrin bir qismi Xəzər Universitetində təhsil alır.

Bəyanatın mətni aşağıda verilir.

### AZƏRBAYCANDA TƏHSİL ALAN İRANLI TƏLƏBƏLƏRİN ELMİ-MƏDƏNİ VƏ İDMAN BİRLİYİNİN XOCALI FACİƏSİNİN 24-CÜ İLDÖNÜMÜ İLƏ BAĞLI BƏYANATI

24 il bundan əvvəl Azərbaycanın dilbər guşəsi Qarabağda - əhalisinin sayı 7000 nəfər olan Xocalı adlı bir şəhərdə misli görünməmiş dəhşətli bir soyqırımı hadisəsi baş verdi. Erməni silahlı birləşmələrinin törətdikləri bu vəhşilik nəticəsində 106 qadın, 63 uşaq və 70 qoca olmaqla, 613 dinc sakin amansızcasına qətlə yetirildi, 1000 nəfər yaralandı, 1275 nəfər əsir alındı və 150 nəfər isə itkin düşdü.

Ermənistanın Azərbaycana qarşı işğalçılıq və soyqırımı siyasətinin tərkib hissəsi olan, beynəlxalq hüququn norma və prinsiplərinin kobudcasına pozulması ilə nəticələnən Xocalı soyqırımı erməni millətçilərinin və onların havadarlarının Azərbaycan xalqına qarşı uzun müddət davam edən etnik təmizləmə və soyqırımı siyasətinin daha bir dəhşətli nümunəsi idi.

Lakin təəssüf ki, Azərbaycanda dinc əhaliyə qarşı törədilmiş belə dəhşətli soyqırımı aktlarına baxmayaraq, bu faktlar, o cümlədən Xocalı soyqırımı beynəlxalq aləmdə hələ də öz qiymətini almayıb. İkili standartlara yol vermədən, beynəlxalq hüquq norma və prinsiplərinə uyğun olaraq, bu hadisə xüsusi beynəlxalq komissiya tərəfindən araşdırılmalı, səlahiyyətli beynəlxalq qurumlar tərəfindən genosid aktı kimi tanınmalı, cinayət törədənlərə qarşı sanksiyalar tətbiq edilməlidir.

Artıq 24 ildir dünya, o cümlədən İran xalqı Xocalı faciəsini Azərbaycan xalqı ilə birgə yad edir, konfranslar, tədbirlər, sərgilər təşkil etməklə Azərbaycanla həmdərd olduğunu nümayiş etdirir. Biz, iranlı tələbələrin Elmi-Mədəni və İdman Birliyi olaraq XX əsrdə ən ağır beynəlxalq terror cinayətlərindən biri hesab olunan Xocalı faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir və bəşəriyyətə qarşı törədilən hər növ bütün cinayətləri pisləyirik. Əmin olduğumuzu bildirmək istəyirik ki, gec-tez haqq-ədalət öz yerini tapacaq və Xocalı soyqırımını törədən cinayətkarlar öz cəzalarına çatacaqlar.

Allah bütün şəhidlərimizə rəhmət eləsin! Amin!

*Zoheir Mirzajani,*
*Azərbaycanda təhsil alan iranlı tələbələrin Elmi-Mədəni və İdman Birliyinin sədri*

On February 26, Iranian students in Azerbaijan released a statement dedicated to the 24th anniversary of the Khojaly Tragedy. Some of Azerbaijan's Iranian student population study at Khazar University.

The statement is as follows.

# IRANIAN STUDENTS PUBLISH STATEMENT ABOUT KHOJALY TRAGEDY

## STATEMENT DEDICATED TO THE 24TH ANNIVERSARY OF THE KHOJALY TRAGEDY BY CULTURAL AND SPORTS UNION OF IRANIAN STUDENTS STUDYING IN AZERBAIJAN



24 years ago, in the most beautiful corner of Azerbaijan, Garabagh, in a village named Khojaly with a population of 7000, a terrible genocide took place. As a result of this savagery by armed Armenian bands, 613 peaceable villagers were mercilessly killed (including 106 women, 63 children and 70 senior citizens), 1000 were wounded, 1275 were taken hostage and 150 went missing.

This was another terrible example of the Armenian policy of ethnic cleansing and genocide against Azerbaijan as well as flagrant violation of international laws and principles that resulted in the Khojaly Genocide.

Unfortunately, this tragedy afflicted on peaceable Azerbaijani citizens has still not been appropriately evaluated by the international community. International bodies must recognize this as an act of genocide, investigate it in accordance with international legal standards and principles without allowing double standards, and apply sanctions against the perpetrators of these crimes.

For 24 years, other countries including Iran have been commemorating the tragedy along with Azerbaijan by organizing conferences, exhibitions, and events to show our solidarity with Azerbaijan in this.

We Iranian students of the Cultural and Sports Union commemorate this tragedy and consider it one of the worst acts of international terrorism in the 20th century. We condemn all criminal acts against mankind. We are confident that someday justice will be served and those who instigated the Khojaly Genocide will be punished.

May God have mercy on all the ones who died! Amen.

***Zoheir Mirzajani,***
***Chairman of Cultural and Sports Union of Iranian Students Studying in Azerbaijan***




# ƏMƏKDAŞLARIMIZ İŞÇİ MOBİLLİYİ TƏLİMİNDƏ

Mühəndislik və tətbiqi elmlər fakültəsinin dekan müavini Vəfa Aslanova və İngilis dili departamentinin koordinatoru Nuranə Fərhadova fevralın 7-dən 12-dək Böyük Britaniyanın Middlesex Universitetində 1-ci Erasmus+ İşçi mobilliyi təlimində iştirak etmişlər. Təlimin əsas məqsədi işçilərin beynəlxalq təcrübə qazanması idi. Təlimdə 20 ölkədən 33 nümayəndə iştirak edirdi. Fevralın 9-da 8 iştirakçı 4 mövzuda, o cümlədən Nuranə Fərhadova "Əməkdaşlıq müqavilələrinin inkişafı və keyfiyyəti" mövzusunda təqdimatla çıxış etmişlər.

Təlim "Xaricdə təhsil sərgisi" ilə sona çatmışdır.

# FACULTY MEMBERS PARTICIPATE IN STAFF MOBILITY TRAINING

On 7-12 February, Vafa Aslanova, Vice Dean of the School of Engineering, and Nurana Farhadova, Coordinator of the English Language Department, participated in the 1st combined Erasmus+ European (KA103) and International Credit Mobility (KA107) Staff Mobility Training Week: *Changing Lives through Mobility and Cross-border Cooperation* which was held at Middlesex University, London, UK. The main objective of the training was for members to gain international experience. 33 participants from 20 countries participated in the training. On February 9th, 8 participants made presentations on 4 topics. Nurana Farhadova made a presentation on "Development and Quality of Cooperation Agreements." The training concluded with a Study Abroad Fair with invited partners.

# İKİ TƏLƏBƏMİZ TÜRKİYƏDƏ MÜBADİLƏ PROQRAMINDA İŞTİRAK EDİR




Orta Doğu Texnik Universitetində (ODTÜ, Ankara/Türkiyə) bir semestrlik mübadilə proqramında iştirak etmək üçün Mühəndislik və tətbiqi elmlər fakültəsindən seçilmiş iki tələbə təhsillərinə başlamışlar. Səidə Əhmədova kompüter elmləri (3-cü il), Əzim Haşimov isə neft mühəndisliyi (2-ci il) ixtisası üzrə təsil alan tələbələrdir.

Bu mübadilə proqramı Erasmus + proqramı çərçivəsində Xəzər Universiteti ilə Orta Doğu Texnik Universiteti arasında bağlanmış universitetlərarası əməkdaşlıq razılaşmasına əsasən həyata keçirilir.






Fevralın 26-da Xəzər Universiteti Karyera mərkəzinin təşkilatçılığı ilə CIBS (*Caspian İnternational Business Services*) Təlim Mərkəzi tələbələr üçün "Effektiv müsahibə" adlı vorkşop keçirdi. Təlimçi CIBS təlim mərkəzinin təsisçisi, "Yalanın Beynəlxalq Araşdırılması Akademiyası"nın mütəxəssis profayleri, Azərbaycanda ilk dəfə olaraq Operativ Psixodiaqnostika və FACS (*Facial Action Coding System*) üz əzələlərinin kodlaşdırılması sistemi layihələrinin rəhbəri Təbriz Hacıyev idi. Vorkşopda universitet tələbələrinin iştirakı ilə müsahibəyə hazırlıq, iş müsahibəsi zamanı şəxsi potensialı düzgün nümayiş etdirmək, verilən suallara hazırcavab olmaq, ictimaiyyətlə əlaqələr şöbəsinin nümayəndəsində inam hissi yaratmaq, özünü doğru ifadəetmə bacarıqlarını formalaşdırmaq və s. qaydalar haqqında müzakirələr aparıldı.

Tədbirdə tələbələri maraqlandıran suallar cavablandırıldı.

# "XƏZƏR"İN TƏLƏBƏLƏRİ START YOUR OWN BUSINESS YARIŞMASINDA

# KHAZAR STUDENTS IN START YOUR OWN BUSINESS COMPETITION

Fevralın 21-də "Project+" birliyinin təşkil etdiyi "Start Your Own Business" layihəsinin bağlanış mərasimi keçirildi. 2 həftə davam edən təlimlərin sonunda komandalar inkubatorlara öz ideyalarını layihələşdirilmiş şəkildə təqdim etdilər. Bu yarışmada Xəzər Universitetinin 2-ci il tələbələri Mina Məhərova (İqtisadiyyat və menecment fakültəsi), Tərlan Məmmədli və Qurban Əsgərov (Mühəndislik və tətbiqi elmlər fakültəsi) "Stimul" komandası adı altında çıxış edirdilər. "Just a Business Camp" adlı layihəni təqdim edən "Xəzərli"lər inkubatorlar tərəfindən böyük rəğbətlə qarşılandılar və "STİMUL Education and Consulting" şirkəti ilə öz ideyalarını gerçəkləşdirmək üçün razılaşma əldə etdilər.

Layihədə "İRƏLİ" İctimai Birliyi və "LOQOS" Nitq-İnkişaf Mərkəzi inkubator kimi iştirak edirdilər.

On February 21, the closing ceremony of the Start Your Own Business project was held by the Project+ union. At the end of two weeks of training, participating teams submitted their business plans to incubators. A team of second-year students from Khazar University (Mina Maharova, School of Economics and Management, and Tarlan Mammadli and Gurban Asgarov from the School of Humanities and Social Sciences) are participating under the name "Stimul." The Khazar team's idea, called "Just a Business Camp," was received well by incubators and the STIMUL Education and Consulting Company agreed to implement the idea.

IRELI Public Union and LOQOS Speech-Development Center also participated in the project as incubators.

# ORIENTATION SESSION FOR INTERNATIONAL STUDENTS



On February 27, the International Affairs Office staff and volunteers carried out an orientation session for international students who joined Khazar University in the Spring semester of the current academic year (2015-2016). The orientation session took place on the Neftchilar Campus.

The main goal of the orientation session was to equip the students with important information that would help them navigate the university environment, Azerbaijan and Baku as well as to give them a chance to meet other international students. Topics covered during the orientation session included but were not limited to: academic and social life at Khazar University, history of Azerbaijan, local culture and traditions, transportations system, annual events in Baku, etc.



Participants included new full-time students from Cameroon, Gambia, Palestine, Yemen, and Zimbabwe, as well as exchange students from Italy, Poland, and Portugal. Current international students also participated in the session and shared their experience with their fellow international students who had arrived in Azerbaijan recently and had just started their academic programs.



# ƏCNƏBİ TƏLƏBƏLƏR ÜÇÜN ORİYENTASİYA SESSİYASI









Fevralın 27-də Beynəlxalq Əlaqələr Şöbəsinin işçi və könüllüləri cari tədris ilinin (2015/2016) yaz semestrində Xəzər Universitetində təhsilə başlamış əcnəbi tələbələr üçün oriyentasiya sessiyası keçirdilər.

Kamerun, Qambiya, Fələstin, Yəmən və Zimbabvedən gəlmiş tələbələr əyani təhsil, İtaliya, Polşa və Portuqaliyadan olan tələbələr isə mübadilə proqramı çərçivəsində təhsil alacaqlar.

Oriyentasiya sessiyasının əsas məqsədi onları universitet mühiti ilə tanış etmək, digər əcnəbi tələbələrlə görüşdürmək, həmçinin Azərbaycan və Bakıda rahat hərəkət edə bilmələri üçün məlumatlandırmaq idi. Sessiya zamanı iştirakçılara Xəzər Universitetində akademik və sosial həyat, Azərbaycan tarixi, yerli mədəniyyət və adətlər, ənənvi bayramlar, Bakıda nəqliyyat sistemi və bir çox başqa mövzularla bağlı informasiya verildi.

Universitetdə artıq təhsil alan əcnəbi tələbələr də sessiyada iştirak edirdilər. Onlar Azərbaycana bu yaxınlarda gəlmiş və tədris proqramlarına yenicə başlamış əcnəbi tələbələrlə öz təcrübələrini bölüşdülər.



## QAFQAZ ALBANİYASI MÖVZUSUNDA DƏYİRMİ MASA

Fevralın 25-də Xəzər Universiteti Tarix və arxeologiya departamentinin ənənəvi olaraq təşkil etdiyi dəyirmi masada Azərbaycan tarixinin aktual məsələlərindən olan Qafqaz Albaniyası mövzusu ilə əlaqədar "Antik müəlliflər Qafqaz Albaniyası haqqında və Antik arxeologiya" məsələsi müzakirə olundu. Tədbirdə Xəzər Universitetindən, Bakı Dövlət Universitetindən və Pensilvaniya Universitetindən, eləcə də AMEA Arxeologiya və Etnoqrafiya İnstitutundan peşəkar və gənc tədqiqatçılar - Fərda Əsədov, Mübariz Xəlilov, Rüxsarə Quliyeva, Lara Fabian, Roza Arazova, Orxan Zamanov, Yeganə Çağlayan iştirak edirdilər.

Dəyirmi masa 2015-ci il dekabrın 18-də keçirilmiş "Roma imperiyası və Cənubi Qafqaz" mövzusunun məntiqi davamı kimi tarixi tədqiqat metodologiyasından başlayaraq, qədim mənbə və qaynaqların təhlili kimi bir sıra maraqlı və mühüm elmi məsələlərin müzakirəsi ilə nəticələndi. Amerikalı arxeoloq Lara Fabianın tədqiqatları, həmçinin antik arxeologiyanın bir sıra elmi problemləri üzrə fikir mübadiləsi aparıldı və yeni baxışlar nəzərdən keçirildi.

## ROUNDTABLE ON CAUCASIAN ALBANIA

On February 25, a traditional roundtable lesson of the Department of History and Archeology was held on the topic of Caucasian Albania. This seminar was entitled "Classical Authors on Caucasian Albania and Ancient Archeology." Participants included young and professional researchers from Khazar University, Baku State University and University of Pennsylvania as well as the Archology and Ethnography Institute of Azerbaijan National Academy of Sciences.

The seminar was a logical continuation of a previous seminar held on December 18, 2015 on "The Roman Empire and South Caucasus." It began with historical research methodology and ended with a discussion of academic issues such as the analysis of ancient materials and texts. American archeologist Lara Fabian shared her research and experience in classical archeology. Specialists including Farda Asadov, Mubariz Khalilov, Rukhsara Guliyeva, Lara Fabian, Roza Arazova, Orkhan Zamanov, and Yagana Chaghlayan participated in the seminar.



# "JOURNAL CLUB"-IN İLK SEMİNARI



Fevralın 24-də "Journal Club"-ın ilk seminarı keçirildi. Bu seminarın müntəzəm olaraq keçirilməsi fevralın 17-də elmi məqalələrin necə yazılmasına həsr olunmuş seminarda tövsiyə edilmişdir. "Journal Club" seminarlarının keçirilməsinin əsas məqsədi müvafiq məqalələri qiymətləndirərək yeni tədqiqat nəticələri ilə tanış olmaq, onları müzakirə etmək və beləliklə, məqalə yazmağı daha da təkmilləşdirməkdir.

Seminarda müxtəlif ixtisas sahələrindən olanlar iştirak etdiynə görə bu və ya digər məqalənin müzakirəsində çətinlik yarandığı üçün belə seminarların hər bir sahə üzrə keçirilməsi nəzərdə tutulmuşdur.







# TÜRKİYƏLİ PROFESSORUN AÇIQ DƏRSİ

Fevralın 29-da Xəzər Universiteti İqtisadiyyat və menecment fakültəsinin təşkilatçılığı ilə universitet kitabxanasının treninq zalında türkiyəli professor, insan resurslarının idarə olunması üzrə təcrübəli mütəxəssis Ömər Sadullahın "İşlətmə təhsili üzrə bəzi düşüncələr" (Some Thougts on Business Education) mövzusunda açıq dərsi keçirildi. Dərsdə fakültənin tələbələri və universitetin əməkdaşları iştirak edirdilər.

Fakültənin dekanı İ. Əhmədov Ö. Sadullahı iştirakçılara təqdim etdi və onun elmi fəaliyyəti haqqında məlumat verdi, bildirdi ki, uzun illər İstanbul Universitetində çalışmış alim hazırda təqaüddədir. Sonra Ö. Sadullah mövzu üzrə mühazirə ilə çıxış etdi və iştirakçılarla fikir mübadiləsi apardı.

Sonda İ. Əhmədov qonağa maraqlı mühazirəsinə görə təşəkkürünü bildirdi.



## KONFUTSİ İNSTİTUTUNUN DİREKTORU "XƏZƏR"DƏ

Martın 3-də BDU-nun nəzdində və Xəzər Universitetində fəaliyyət göstərən Konfutsi İnstitutunun Çin tərəfdən yeni təyin olunmuş direktoru professor Luo Xiaozhi Xəzər Universitetində oldu. O, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə görüşdü.

Görüşdə Xəzər Universitetinin nəzdində "Dünya" məktəbinin və Xəzər Universitetinin Konfutsi İnstitutu ilə əməkdaşlıq perspektivləri, o cümlədən "Xəzər"in Çindəki ali məktəblərlə əməkdaşlıq imkanları müzakirə olundu.

## CONFUCIUS INSTITUTE DIRECTOR VISITS KHAZAR

On March 3, Professor Luo Xiaozhi, the newly-appointed Director of the Confucius Institute affiliated with Baku State University and operating at Khazar University, met with Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees.

During the meeting, the parties discussed opportunities for future partnership among Khazar University, its affiliate Dunya School, and the Confucius Institutes, to include partnerships with higher education institutions in China.

# "XƏZƏR"DƏ PETROBOWL COMPETİTON YARIŞMASI KEÇİRİLDİ

Fevralın 27-də Neft Mühəndisləri Cəmiyyətinin Xəzər Universiteti Tələbə bölməsinin təşkilatçılığı ilə Xəzər Universitetinin Mərmər Salonunda Azərbaycanın bir sıra universitetlərinin neft-qaz mühəndisliyi və digər mühəndislik ixtisasları üzrə təhsil alan tələbələri arasında "PetroBowl Competiton" yarışması keçirilmişdir. Yarışmanın əsas mövzusunu neft-qaz mühəndisliyi ilə yanaşı kimya, fizika və geologiya elmlərinə aid viktorina sualları təşkil edirdi.

Yarışmada Xəzər Universitetinin, Bakı Ali Neft Məktəbinin, Bakı Dövlət Universitetinin, Qafqaz Universitetinin və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin tələbələrindən ibarət 14 komanda iştirak etmişdir. Yarışmada Bakı Ali Neft Məktəbi 1-ci, Xəzər Universiteti 2-ci, Qafqaz Universiteti 3-cü yerləri tutdular.













# ÜMUMDÜNYA MÜLKİ MÜDAFİƏ GÜNÜNƏ HƏSR EDİLMİŞ TƏDBİR





Martın 1-də Xəzər Universitetində müəllim və tələbələrin iştirakı ilə 1 Mart – Ümumdünya Mülki Müdafiə Gününə həsr edilmiş tədbir keçirildi. Tədbirdə Nizami rayonu Fövqəladə Hallar və Mülki Müdafiə şöbəsinin rəisi polkovnik-leytenant Natiq Abdullayev və həmin şöbənin əməkdaşları olan zabitlər iştirak edirdilər.

1 Mart – Ümumdünya Mülki Müdafiə Günü hər il bir mövzuya həsr olunur. Bu il isə bu tədbir "Mülki Müdafiə və yeni texnologiyalar" mövzusuna həsr edilmişdi. Tələbələr Ümumdünya Mülki Müdafiə təşkilatı, yeni texnologiyalar və onların tədbiqi haqqında məlumat verdilər, ilk tibbi yardım zamanı süni tənəffüsün verilməsi və ürəyin qapalı masajının qaydalarını nümayiş etdirdilər. Azərbaycanda fövqəladə hallar və mülki müdafiə hazırlığı haqqında qısa videofilm nümayiş olundu.

Tədbirdə Xəzər Universitetinin əməkdaşları – Dr. İradə Xəlilova və ehtiyatda olan polkovnik-leytenant Mayis Talışxanov çıxış etdilər. Sonra Nizami rayonu Fövqəladə Hallar və Mülki Müdafiə şöbəsinin rəisi polkovnik-leytenant Natiq Abdullayev çıxış edərək, tələbələrə fövqəladə hallarda hazırlıq, xəbərdarlıq üsulları haqqında məlumat verdi və onların suallarını cavablandırdı.



# MƏKTƏBLİLƏR ÜÇÜN SEMİNAR

Martın 1-də Xəzər Universiteti Karyera Mərkəzinin təşkilatçılığı ilə Akademik Zərifə Əliyeva adına liseyin 9-11-ci sinif şagirdləri ilə seminar keçirildi. Seminarda 80 şagird və liseyin Psixologiya mərkəzinin direktoru, liseyin İKT üzrə direktor müavini və müəllim heyəti iştirak edirdilər.

Seminarda universitetin Karyera mərkəzinin koordinatoru Ülviyyə Hüseynova "Xəzər Universitetinin tanıtımı və uğurlu karyeranın seçilməsi" mövzusunda təqdimat etdi. Şagirdlərə universitetin tədris proqramından, akademik fəaliyyətindən, ictimai həyatı və Peşə İnkişaf Mərkəzi haqqında məlumat verildi. Təqdimatda, həmçinin, Mühəndislik və tətbiqi elmlər fakültəsinin III kurs tələbəsi Fidan Rüstəmova, Təhsil fakültəsinin IV kurs tələbələri Aynur Məmmədova və Günay Kərimova da iştirak edirdilər. Tələbələr universitet həyatında qazandıları uğurlardan danışdılar.

Seminarda şagirdləri maraqlandıran suallar cavablandırıldı.







## CISCO TEXNOLOGİYALARI ÜZRƏ ŞƏBƏKƏ İNZİBATÇILIĞI

Martın 4-də "Techno Club Azerbaijan" cəmiyyətinin *(Khazar University Techno Club)* və "Network Training Center" kurslarının birgə təşkilatçılığı ilə Xəzər Universitetinin tələbələri üçün "CISCO Texnologiyaları üzrə Şəbəkə İnzibatçılığı" mövzusunda seminar keçirildi. Seminarda "Network Training Center" kurslarının nümayəndəsi, Xəzər Universitetinin məzunu Teymur Əzimov seminar iştirakçılarına şəbəkə inzibatçılığı üzrə ümumi biliklər, sertifikatlaşdırma, bu sahədə olan brend şirkətlər və onların CISCO şirkəti ilə əsas fərqləri barəsində geniş məlumat verdi. Həmçinin, şəbəkə avadanlıqları ilə işləməyi, kiçik şəbəkə proseslərini və virtual şəbəkə idarəsini əyani olaraq tələbələrə göstərdi.

Seminarda Xəzər Universiteti tələbələri ilə yanaşı, başqa universitetlərdən də bu sahə ilə maraqlanan tələbələr iştirak edirdilər.

## NETWORK ADMINISTRATION WITH CISCO TECHNOLOGIES

On March 4, Khazar University Techno Club and Network Training Center jointly organized a seminar for Khazar students on network administration using CISCO technologies. Teymur Azimov, representative of Network Training Center and Khazar University alumnus, led the seminar, in which he informed students about general knowledge, certification, and brand-name business in this field and how they differ from CISCO. He also demonstrated how to work with network equipment, small network processes and virtual network management.

Participants in the seminar included Khazar University students as well as interested students from other universities.

## SEMİNAR: TƏDQİQAT BACARIQLARININ İNKİŞAFI

Martın 1-2-də Xəzər Universitetinin Siyasi elm və beynəlxalq münasibətlər departamenti magistratura və doktorantura tələbələri üçün elmi seminar təşkil etdi. Seminar gənc tədqiqatçıların tədqiqat bacarıqlarının inkişafı və elmi işlərin yazılması prosesinə kömək məqsədilə nəzərdə tutulmuşdu. Həmçinin, tədbirdən məqsəd hazırkı magistratura və doktorantura tələbələrini bir araya gətirmək və onlar arasında fikir və bilik mübadiləsi üçün şərait yaratmaq idi. Seminar, hər birinə xüsusi diqqət ayrılmaqla, tədqiqatın tərtibatı, ədəbiyyatın nəzərdən keçirilməsi, məlumatların toplanması üsulları və təhlili daxil olmaqla, bir neçə sessiyadan ibarət idi. Burada əsas akademik prinsiplərin müzakirəsinə, eləcə də, akademik bütövlüyün və plagiatçılığın aradan qaldırılması kimi məsələlərə xüsusi diqqət yetirildi.



## PREZİDENTLİYƏ NAMİZƏDLƏRİN DEBAT-GÖRÜŞÜ KEÇİRİLDİ

Martın 3-də Xəzər Universiteti Tələbə Məclisi prezidentliyinə namizədlərin debat-görüşü keçirildi. Debat geniş tələbə kütləsinin qarşısında baş tutdu. Tələbə Məclisi prezidentliyinə namizədlərdən İqtisadiyyat və menecment fakültəsinin tələbəsi Ozal Süleymanov, Mühəndislik və tətbiqi elmlər fakültəsinin tələbəsi Qurban Əsgərov, Humanitar və sosial elmlər fakültəsinin tələbəsi Xədicə İsmailova və Təhsil fakültəsinin tələbəsi Türkan Səmədli təqdimatları ilə çıxış etdilər.

Sonda isə namizədlər tələbələrin suallarını cavablandırdılar.

### "QAFQAZ ALBANİYASINDA İSLAM DİNİNİN YAYILMASI" MÖVZUSUNDA MÜHAZİRƏ

Martın 4-də Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu tərəfindən "Qafqaz Albaniyasını öyrənirik" layihəsi çərçivəsində Xəzər Universitetində "Qafqaz Albaniyasında İslam dininin yayılması" mövzusunda mühazirə təşkil edildi.

Mühazirədə Bilik Fondunun Ölkədaxili layihələr sektorunun baş mütəxəssisi Vidadi Rzayev və Azərbaycan Respublikasının Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə dövlət müşaviri xidmətinin aparıcı məsləhətçisi, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov, Xəzər Universiteti Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri Eldar Şahgəldiyev, Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova iştirak edirdilər.

C. Məmmədov mühazirəsində Azərbaycanın VII əsrdə Ərəb xilafəti ordusuna qarşı mübarizəsi və xilafətin tərkibində olduğu dövrdə Azərbaycanın vəziyyəti, İslam dininin ölkədə yayılması məsələlərindən bəhs etdi.

Tələbələr mühazirəçiyə suallar ünvanladılar və mövzu ətrafında geniş müzakirə aparıldı.

Martın 4-də ***Sia.az*** xəbər saytı tədbir haqqında xəbər yaymışdır. Xəbəri bu linkdən oxumaq olar: ***http://sia.az/az/news/social/532413-qafqaz-albaniyasinda-islam-dininin-yayilmasi***





# "ASAN KÖNÜLLÜLƏRİ" XƏZƏR UNİVERSİTETİNDƏ

Martın 4-də Xəzər Universitetində "ASAN könüllüləri" təşkilatı və Humanitar və sosial elmlər fakültəsinin birgə təşkilatçılığı ilə "ASAN xidmət"də könüllü ol!" adlı təlim keçirildi.

Humanitar və sosial elmlər fakültəsinin tələbələrinin iştirakı ilə keçirilən təlim "Könüllülüyün fəlsəfəsi və tarixi", "ASAN könüllüləri" təşkilatı, "ASAN School" könüllülük məktəbi və "ASAN kadr" mövzularını əhatə edirdi. Təlimdə iştirakçılara "ASAN xidmət" mərkəzlərində könüllülərin iş prosesi ilə bağlı məlumat verildi. Bildirildi ki, gənclərin özünü inkişaf etdirməsi və biliklərinin artırılması məqsədilə Azərbaycan Respublikasının "Könüllü fəaliyyət haqqında" Qanununa əsasən "ASAN xidmət" mərkəzlərində könüllülük fəaliyyəti həyata keçirilir.

Könüllülər müqavilə əsasında 2 ay müddətində fəaliyyət göstərirlər. Müqavilədə nəzərdə tutulmuş öhdəlikləri 2 ay ərzində həyata keçirən könüllülərə agentliyin rəsmi sertifikatı və xasiyyətnaməsi verilir.

Daha sonra "ASAN könüllüləri" təşkilatının fəaliyyəti ilə bağlı geniş məlumat verildi. "ASAN Könüllüləri" Təşkilatı yarandığı gündən respublikada aparılan gənclər siyasətinin ən böyük dəstəkçilərindən biri olduğu, təşkilatın əsas missiyasının cəmiyyətimizin dayanıqlı inkişafı üçün çalışan vətəndaşlar şəbəkəsini formalaşdırmaq olduğu qeyd edildi.

Təlimin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırıldı.

## "XƏZƏR"İN ƏMƏKDAŞI SOSİAL MÜAVİNƏTLƏRİN GƏLƏCƏYİNDƏN DANIŞDI

Martın 7-də *istiqamet.com* saytında "Gələcəkdə pensiyaçılara ödəməyə pul tapılmayacaq" adlı məqalə yayınlanmışdır. Məqalədə Xəzər Universitetinin professoru Fuat Rəsulovun fikirlərinə geniş yer verilmişdir.

Məqaləni tam şəkildə bu link vasitəsilə oxumaq olar: *http://www.istiqamet.com/gələcəkdəpensiyacilara-ödəməyə-pul tapilmayacaq_d31508.html*

## "XƏZƏR"İN TƏLƏBƏ VƏ MÜƏLLİM HEYƏTİ AKADEMİK MİLLİ DRAM TEATRINDA

Martın 6-da Azərbaycan dili və ədəbiyyatı departamentinin təşəbbüsü ilə Akademik Milli Dram Teatrında M.F.Axundovun "Sərgüzəşti-vəziri-xani Lənkəran" komediyası Xəzər Universitetinin tələbə və müəllim heyəti üçün oynanılmışdır.

## ƏMƏKDAŞIMIZ DƏMT MÜKAFATININ TƏQDİM OLUNMASI MƏRASİMİNDƏ

Fevralın 29-da Hökumət evinin dairəvi zalında Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi (MHA) və Təhsil Nazirliyinin təşkilaçılığı ilə Dünya Əqli Mülkiyyət Təşkilatının (DƏMT) mükafatının təqdim olunması mərasimi keçirilmişdir. Mükafat qızıl medal, xatirə hədiyyəsi və DƏMT-in Baş direktoru Frensis Qarri tərəfindən imzalanmış sertifikatdan ibarətdir.

Mərasimdə AMEA və təhsil sahəsinin rəhbər işçiləri, millət vəkilləri, media mənsubları, o cümlədən "Xəzər Xəbər" jurnalının baş redaktor müavini, əməkdar jurnalist Əlirza Balayev iştirak edirdilər. MHA-nın sədri Kamran İmanov Bakı Avropa Liseyinin yeddinci sinif şagirdi Hüseyn Hacıyevin informasiya texnologiyaları sahəsindəki nailiyyətlərinə görə DƏMT mükafatına layiq görüldüyünü elan etmiş və qalibə mükafat təqdim olunmuşdur.






FƏLƏSTİN SƏFİRİ
XƏZƏR UNİVERSİTETİNDƏ

# PALESTINIAN AMBASSADOR TO AZERBAIJAN SPEAKS AT KHAZAR

On March 11, the Department of Political Science and International Relations at Khazar University hosted H. E. Nasser Abdul Kareem, the Palestinian Ambassador to Azerbaijan, for a guest lecture about Palestine--European Union relations in the context of the European Neighborhood Policy. He spoke on the EU assistance to Palestinians, underlining the fact that the EU remains the largest provider of aid to Palestine to support its internally displaced people and the state structures. Mr. Kareem mentioned the EU-administered PEGASE program, which provides financial assistance to the Palestinian Authority, and the United Nations Relief and Works Agency for Palestine Refugees in the Near East (UNRWA), which provides services to Palestinians, who fled their homes following the 1948 conflict. Among other things, he informed the audience about the Interim Association Agreement on Trade and Cooperation that was signed between the EU and the Palestine Liberation Organization in 1997 with the aim of providing Palestinian industrial goods with duty-free access to the EU markets.

Martın 11-də Xəzər Universitetinin Siyasi elm və beynəlxalq münasibətlər departamentinin təşkilatçılığı ilə Fələstinin Azərbaycandakı səfiri Nasir Əbdül Kərim "Avropa Qonşuluq Siyasəti kontekstində Fələstin-Avropa Birliyi münasibətləri" mövzusunda mühazirə ilə çıxış etdi. Mühazirə zamanı səfir Avropa Birliyi tərəfindən Fələstin dövlətinə və fələstinli qaçqınlar və məcburi köçkünlərə göstərilən yardımdan danışdı. O, həmçinin, Fələstin dövlətini maliyyə yardımı ilə təmin edən və AB tərəfindən idarə olunan PEGASE proqramı və 1948-ci il müharibəsi nəticəsində evlərini tərk etmiş fələstinlilərə yardım göstərən Birləşmiş Millətlər Təşkilatının Fələstin qaçqınlarına yardım və işlərin təşkili üçün Yaxın Şərq Agentliyinin fəaliyyəti haqqında məlumat verdi.

Digər məsələlərlə yanaşı, səfir Fələstinin sənaye mallarının AB bazarlarına rüsumsuz çıxışını təmin etmək məqsədilə 1997-ci ildə AB və Fələstin Azadlıq Təşkilatı arasında imzalanmış Ticarət və Əməkdaşlıq haqqında Aralıq Assosiasiya Sazişindən də bəhs etdi.



# RİYAZİYYAT FƏNN OLİMPİADASI QALİBLƏRİNİN MÜKAFATLANDIRMA MƏRASİMİ

Martın 5-də "Dünya" məktəbində "Təhsil ağlın simasıdır" devizi ilə Təhsil Nazirliyinin keçirdiyi Respublika riyaziyyat fənn olimpiadası qaliblərinin mükafatlandırma mərasimi təşkil olundu. Olimpiada Bakı Şəhər Təhsil İdarəsi və "Dünya" məktəbinin təşkilatçılığı ilə paytaxt məktəblərinin 6 və 7-ci sinif şagirdləri arasında keçirilmişdi.

Mərasim Xəzər Universiteti Kamera orkestrinin ifası ilə başlandı.

Tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, "Dünya" məktəbinin həmtəsisçisi Nailə xanım İsayeva, Milli Məclisin deputatları Elman Nəsirov, Azay Quliyev, AMEA-nın akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun direktoru, akademik Vaqif Abbasov, Təhsil Nazirliyinin əməkdaşı Fuad Qarayev, Binəqədi Rayon İcra Hakimiyyətinin nümayəndəsi Elnur Məmmədov, ölkənin tanınmış ziyalıları, görkəmli alim və mütəxəssislər, ümumtəhsil məktəblərinin direktorları, valideyinlər, şagirdlər iştirak edirdilər.







Müsabiqənin nəticələrinə görə 8 nəfər qızıl, 17 nəfər gümüş, 8 nəfər bürünc medalla, həmçinin "Dünya" məktəbinin və Təhsil Nazirliyinin qiymətli hədiyyələri ilə təltif olundular.

"Dünya" məktəbinin şagirdləri – Murad İlyasov və Gülarə Hüseynova (qızıl), Çapay Qəhrəmanov və Nicat Əliyev (gümüş) də qaliblər sırasında idilər.

İştirakçılar çıxış edərək "Dünya" məktəbinin gözəl təhsil ocağı olduğunu qeyd etdilər və olimpiada qaliblərini təbrik etdilər.

Tədbir məktəb kollektivinin hazırladığı bədii hissə ilə başa .çatdı.





































## "DÜNYA" MƏKTƏBİNDƏ BAYRAM TƏDBİRİ

"Dünya" məktəbində 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə bayram tədbiri keçirildi.

Məktəbin əməkdaşlarının iştirak etdiyi tədbirdə qadınlara həsr edilmiş şeirlər, mahnılar səsləndi, gözəl rəqslər tədbiri bəzədi. Tədbirdə iştirak edən filoloq, ictimaiyyətçi xanım, şair Tofiq Bayramın bacısı Svetlana Bayramova öz ürək sözlərini məktəb kollektivi ilə bölüşərək, qardaşının "Qadın ürəyi" şeiri ilə qadınları təbrik etdi.

Sonra professor Hamlet İsaxanlı çıxış etdi. O, məktəb kollektivinin hazırladığı bayram tədbirini, yüksək qiymətləndirdi, qadınlara təbrikini çatdırdı.

Tədbirdə "Dünya" məktəbinin həmtəsisçisi Nailəxanım İsayeva iştirak edirdi.



## İRAQ SƏFİRLİYİNİN NÜMAYƏNDƏLƏRİ "DÜNYA" MƏKTƏBİNDƏ

Martın 10-da İraq Respublikası səfirliyinin müvəqqəti işlər vəkili Dr. Fazil Avvad Əşşüveyli Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən "Dünya" məktəbində oldu. Səfər İraq səfirliyində bu ilin əvvəlində Xəzər Universitetinin Beynəlxalq Əlaqələr Şöbəsinin təşkilatçılığı ilə 2016-2017-ci tədris ili üçün qəbul planı çərçivəsində keçirilən görüşün davamı idi.

"Dünya" məktəbinin direktoru Mərufə Mədətli və IB Proqramının koordinatoru Rəna Həsənova Dr. Fazil Avvad Əşşüveylini və onun tərcüməçisi Nemət Ağalını qəbul etdilər. M. Mədətli təhsil proqramları, dərslərin təşkili, məktəbdənkənar fəaliyyət və məktəbin resursları haqqında məlumat verdi. R. Həsənova "Dünya" məktəbinin IB proqramı barədə məlumat verdi. O, həmçinin, məktəbin qarşıdan gələn tədbirləri haqqında məlumat verərək, qonaqları tədbirlərə dəvət etdi. Qonaqlar üçün məktəb turu təşkil olundu.

Dr. Fazil Avvad Əşşüveyli dəvətə və məktəb haqqında ətraflı məlumata görə müdiriyyətə təşəkkürünü bildirdi.

## REPRESENTATIVES OF EMBASSY OF IRAQ VISIT DUNYA SCHOOL

On March 10, Dr. Fadhil Awad Al-Shuwaili, Charge d'affaires of the Embassy of the Republic of Iraq, visited Dunya School, an affiliate of Khazar University. The visit was a follow-up to the meeting at the Embassy of Iraq held earlier this year and organized by the International Affairs Office in the framework of the recruitment plan for the 2016-2017 academic year.

Ms. Marufe Madatli, Dunya School Director, and Ms. Rena Hasanova, IB Program Coordinator, hosted Mr. Fadhil Awad Al-Shuwaili and his translator Nemet Aghali. Ms. Madatli gave a presentation about the school, study programs, organization of classes, extracurricular activities, and resources. Ms. Rena Hasanova spoke about the International Baccalaureate Program offered at Dunya School and took the guests on a tour of the school. She also gave information about the upcoming events of the school and invited the guests to attend the events.

Dr. Fadhil Awad Al-Shuwaili thanked the school representatives for the invitation and the tour and expressed his satisfaction with the school, its conditions, resources, and activities.

## TƏHSİL KOMİSSİYASININ LƏĞV EDİLMƏSİ HAQQINDA

Martın 10-da ***sputnik.az*** saytı "Prezident Təhsil üzrə Komissiyanı niyə ləvğ etdi?" başlıqlı yazıda Azərbaycan Respublikasının Prezidenti yanında Təhsil üzrə Komissiyanın ləğv edilməsinin səbəblərini araşdırmışdır. Araşdırmada əvvəllər komissiyanın üzvlərindən biri olmuş Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının fikirlərinə yer verilmişdir.

Yazını tam şəkildə bu link vasitəsilə oxumaq olar:

***http://sputnik.az/science/20160310/404106550.html***



## POLŞA SƏFİRİ XƏZƏR UNİVERSİTETİNDƏ

Martın 18-də Polşa Respublikasının Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli səfiri Marek Tsalka Xəzər Universitetində oldu, universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə görüşdü.

Görüşdə Polşa universitetlərinin Xəzər Universiteti ilə əlaqələrinin daha da genişləndirilməsi, Polşa səfirliyinin müxtəlif tədbirlərində Xəzər Universitetinin iştirakı və köməyi, müxtəlif tədbirlərin (sərgilər, konfranslar, görüşlər) birgə keçirilməsi və elmi nəşrlər üzərində bərabər çalışmaq kimi məsələlər müzakirə olundu.

## POLISH AMBASSADOR MEETS WITH FOUNDER

On March 18, H.E. Marek Calka, Ambassador Extraordinary and Plenipotentiary of the Republic of Poland to the Azerbaijan Republic, visited Khazar University and met with Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees.

During the meeting, they discussed the further development of partnerships between Polish universities and Khazar University; Khazar University's participation in and assistance in organizing various events of the Polish Embassy; the possibility of holding various events together (including exhibitions, conferences, and meetings); and the idea of working together on academic publications.





## "ÇƏTİN İNSANLARLA ASAN MÜNASİBƏT" MÖVZUSUNDA SEMİNAR

Martın 9-da Xəzər Psixoloji Xidmət Mərkəzi "Çətin insanlarla asan münasibət" adlı seminar təşkil etdi. Seminar Xəzər Universitetinin müəllimləri Mələk Kərimova və Nərmin Osmanlı tərəfindən keçirildi. Seminarda şəxsiyyət pozuntuları, ego, kimlik, mənlik, xarakter, temperament kimi terminlərə aydınlıq gətirildi, "çətin" insanlarla ünsiyyətin yolları və ünsiyyət qurma çətinliklərindən bəhs edildi.

Seminar iştirakçılarının sualları ətraflı cavablandırıldı və təkliflər dinlənildi.

## TƏLƏBƏMİZİN HƏMMÜƏLLİFİ OLDUĞU MƏQALƏLƏR *DAY.AZ VƏ İSLAMİNSESİ.ORG* SAYTLARINDA

Fevralın 22-də ***day.az*** xəbər saytında Xəzər Universiteti Humanitar və sosial elmlır fakültəsinin tələbəsi Nərmin Quliyevanın Psixologiya və Konsultasiya Mərkəzinin rəhbəri, psixoloq Elnur Rüstəmovla birlikdə hazırladıqları "Hamı məni bəyənməlidir: sosial fobiya nədir?" adlı məqaləsi yayımlanmışdır. Məqalə ilə bu link vasitəsilə tanış olmaq olar:

Həmin müəliflərin martın 8-də ***islaminsesi.org*** saytında "Stressin yaratdığı problemlər" adlı məqaləsi verilmişdir. Məqaləni bu linkdə oxumaq olar: ***http://news.day.az/azerinews/752035.html.***

***http://www.islaminsesi.org/stressin-yaratdigi-problemler--38258.html***




## XƏZƏR UNİVERSİTETİ NƏŞRİYYATININ YENİ KİTABI

Xəzər Universiteti Nəşriyyatında universitetin Azərbaycan dili və ədəbiyyat departamentinin müəllimi Xatirə Bəşirlinin "Koroğlu" dastanı Azərbaycan və Orta Asiya versiyaları əsasında" adlı kitabı çapdan çıxmışdır. Dərs vəsaiti kimi nəzərdə tutulan kitabın çapı universitetin Təhsil fakültəsi və Azərbaycan dili və ədəbiyyat departamentinin elmi-metodiki şuralarının qərarları ilə tövsiyə olunmuşdur.

Kitabın elmi redaktoru filologiya üzrə elmlər doktoru, professor Füzuli Bayatdır.






## AOŞAM DİREKTORU ANKARADA İPƏK YOLU SİMPOZİUMUNDA İŞTİRAK ETMİŞDİR

Martın 3-dən 6-dək Beynəlxalq Türk Ocaqaları Mərkəzi Ankarada "İpək younun yüksəlişi və Türk dünyası" adlı beynəlxalq elmi simpozium keçirmişdir.

Xəzər Universitetinin Avrasiya və Orta Şərq Araşdırmaları Mərkəzinin müdiri Fərda Əsəov simpoziumda iştirak etmiş və "İpək yolu ticarətində Xəzər ölkəsinin tacirləri və malları" mövzusunda məruzə etmişdir.

Simpoziumun rəsmi saytında elmi tədbirin proqramı, tədbir üçün hazırlanmış karvansaralar haqqında sənədli film və şəkillərlə bu link vasitəsilə tanış olmaq olar: *http://ipek-yolu.turkocaklari.org.tr/.*

## KARYERA MƏRKƏZLƏRİ "XƏZƏR"DƏ TOPLANDI

Martın 9-da Xəzər Universiteti Karyera mərkəzinin təşkilatçılığı ilə Qafqaz Universiteti və ADA Universitetinin karyera mərkəzləri ilə görüş keçirildi. Qafqaz Universitetindən Günel Əsgərova, ADA Universitetindən Nurtac Vidadili bu görüşdə iştirak etdilər. Görüşdə "Gənclər sammiti"*(Youth Summit)* ilə bağlı məsələlər müzakirə olundu.



## "XƏZƏR"İN MÜƏLLİMİ DEİZMİ İZAH ETDİ

Martın 9-da ***islaminsesi.org*** saytında Xəzər Universitetinin müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru Mail Yaqubun "Rangsiz və dadsız ideologiya – Deizm" adlı məqaləsi verilmişdir

Məqaləni tam şəkildə bu link vasitəsilə oxumaq olar:

*http://www.islaminsesi.org/rengsiz-ve-dadsiz ideologiya-arxasinca-qacanlar-deizmin gorunmeyen-terefleri–38343.html*



# NDU-DA FRANKOFONİYA BAYRAMI

Martın 10-da NDU-da Frankofoniya bayramı qeyd olunub. Tədbir Azərbaycanın və Fransanın dövlət himnlərinin ifası ilə başlayıb. Universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov tədbirdə çıxış edərək xarici dillərin mükəmməl tədrisinin dünyaya inteqrasiya, ölkələrarası siyasi, elmi, mədəni əlaqələrin inkişafındakı rolundan, fransız dilinin əsas beynəlxalq dillərdən biri olmasından danışıb.

Fransız dili müəllimliyi ixtisasının IV kurs tələbəsi Rüxsarə Qurbanova Frankofoniyanın tarixi haqqında məlumat verərək bildirib ki, cox qədim tarixə malik, fransız dilində danışanların bayramı olan Frankofoniya hər il dünyanın 53 ölkəsində keçirilir. Fransız dilinin, mədəniyyətinin təbliği məqsədini daşıyan bu bayramı 2015-ci ildə 284 milyon əhali qeyd edib. NDU-da Frankofoniya bayramının qeyd olunması 1998-ci ildən etibarən ənənə halını alıb. Bu işdə universitetin Roman - german dilləri kafedrasının müəllimlərinin danılmaz əməyi var. Bu tədbirlər ənənəvi şəkildə, Fransanın Azərbaycandakı fövqəladə və səlahiyyəti səfirinin, səfirliyin nümayəndələrinin iştirakı ilə keçirilmişdir.

Tədbirdə Fransız dili müəllimliyi ixtisasında təhsil alan tələbələrdən Nuray Cəlilova, Həlimə Nəcəfova, Afaq Rəhimli, Xanım Qurbanova, Sona İbrahimli və digərlərinin ifasında fransız dilində şeir və mahnılar səsləndirilib. Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Axundovun "Sərgüzəşti-mərdi-xəsis" ("Hacı Qara") komediyasından fransız dilində təqdim olunan səhnələr, tələbələrdən Elçin Bəhramlı, Orxan Qurbanov, Sərxan Rüstəmov, Səfər Hüseynov, Ruqiyyə Nəzərova, İlkanə İsmayıllı, Kənarə Əliyeva və Qardaş Tağızadənin fransız dilindəki səlis diksiyaları, aktyorluq məharətləri rəğbətlə qarşılanıb.

**Mehriban Sultan,**
*NDU Mətbuat şöbəsinin müdiri*





# ŞƏRQ TƏRƏFDAŞLIĞI MÖVZUSUNDA SEMİNAR

Martın 15-də Xəzər Universitetinin Siyasi elm və beynəlxalq münasibətlər departamentinin təşkilatçılığı ilə Niderland Krallığının Avropa və Şərq Tərəfdaşlığı üzrə xüsusi nümayəndəsi, səfir Dirk Jan Kop mühazirə ilə çıxış etdi. O, əsasən, Şərq Tərəfdaşlığı Siyasəti çərçivəsində Avropa Birliyi (AB) və Azərbaycan arasında əməkdaşlıqdan danışdı. Səfir keçmiş sovet respublikaları ilə bağlı Rusiyanın mövqeyi, Avrasiya İttifaqının perspektivləri və AB tərəfdaşlıq sazişlərinin xüsusiyyətlərinə dair sualları cavablandırdı.

Tədbir zamanı iştirakçılar, həmçinin, AB ilə Azərbaycan arasında kənd təsərrüfatı sahəsində mümkün əməkdaşlıq məsələləri və postsovet ölkələrində insan hüquqları ilə bağlı vəziyyəti müzakirə etdilər.

## SEMINAR ON DUTCH POLICY ON THE EASTERN PARTNERSHIP

On March 15, the Department of Political Science and International Relations of Khazar University hosted Ambassador Dirk Jan Kop, Special Representative for Europe and Eastern Partnership at the Dutch Ministry of Foreign Affairs. He spoke about the cooperation between the EU and Azerbaijan in the framework of the Eastern Neighborhood Policy. He also let the audience know that the Dutch government welcomes the "new readiness" that he has observed in the country to take negotiations with the EU to a qualitatively new level. In the question and answer session, Amb. Kop answered questions concerning the Russia's stance with regards to the former Soviet republics, the promotion of the Eurasian Union, and peculiarities of EU Association Agreements with non-EU countries. During the lecture, participants also discussed cooperation between the EU and Azerbaijan in the field of agriculture as well as the state of value-based questions in post-Soviet countries.

## NEFT MÜHƏNDİSLƏRİ OnePetro MƏLUMAT BAZASINDAN BİR İL İSTİFADƏ EDƏCƏKLƏR

Neft Mühəndisliyi Cəmiyyatinin Xəzər Universiteti bölməsi OnePetro məlumat bazasına bir illik abunə qrantı almışdır. OnePetro məlumat bazası neft və qaz yataqlarının axtarışı və işlənməsi üzrə jurnal məqalələri və texniki sənədlər toplusunun elekton kitabxanasıdır.

Bu məlumat bazasından Neft mühəndisliyi departamentinin həm professor-müəllim heyəti, həm də bütün tələbələri neft və qaz yataqlarının axtarışı və işlənməsi üzrə nəşr edilmiş məqalələrdən və texniki sənədlərdən istifadə etmək imkanı əldə edəcəklər.

## KARNEQİ TƏDQİQAT PROQRAMI HAQQINDA TƏQDİMAT

Martın 11-də Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsi və Beynəlxalq Təhsil üzrə Amerika Şurasının Azərbaycandakı ofisi "Neftçilər" kampusunda Karneqi Tədqiqat Proqramı haqqında təqdimat keçirdilər.

Avrasiya və Şərqi Avropa üzrə Milli Araşdırmalar Şurası (ABŞ) və Beynəlxalq Təhsil üzrə Amerika Şurasının Avrasiya üzrə aparıcı mütəxəssisi Aleksey Xarlamov təmsil etdiyi təsisatlara məxsus proqram, proqrama müraciət proseduru və maliyyə dəstəyi haqqında ətraflı məlumat verdi.

Proqram universitet müəllim heyətinə, tədqiqatçılara, magistr və doktorant tələbələrə ABŞ-da sosial və humanitar elmlər sahəsində tədqiqat aparmaq imkanı verir. Proqram Nyu Yorkun Karneqi Korporasiyasının qrantı hesabına həyata keçirilir.

Təqdimatın sonunda iştirakçıları maraqlandıran suallar cavablandırıldı.

## PRESENTATION ON CARNEGIE RESEARCH FELLOWSHIP PROGRAM

On March 11, 2016, the International Affairs Office organized a presentation about the Carnegie Research Fellowship Program in collaboration with American Councils for International Education in Azerbaijan. The presentation took place on the Nefcthilar campus of Khazar University. Alexey Kharlamov (Senior Program Officer for Eurasia at National Council for Eurasian and East European Research (USA) and American Councils for International Education) provided detailed information about the program, application procedure, and financial provisions.

Carnegie Research Fellowship Program is a program of the National Council for Eurasian and East European Research (NCEEER) in conjunction with the American Councils for International Education: ACTR/ACCELS and is supported by a grant from the Carnegie Corporation of New York. The program provides opportunities for university faculty, researchers, advanced graduate students, and scholars in social sciences and humanities to conduct research in the USA. The presentation ended with a question and answer session.

## DEPARTAMENT MÜDİRİMİZİN HƏMMÜƏLLİFİ OLDUĞU KİTAB ALMANİYADA ÇAP OLUNUB




Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasovun Paskal Lusio Skandizzo (Pasquale Lucio Scandizzo) ilə həmmüəllifi olduğu "The Value of Water in the Greater Baku Area, Azerbaijan" ("Azərbaycanın Böyük Bakı ərazisində suyun dəyəri: inteqrasiyalı su idarə olunması") adlı kitab Almaniyada çapdan çıxmışdır. Kitabda Bakı şəhəri və ətraf ərazilərdə su idarəetmə problemlərindən dan*http://www.amazon.com/Value-Water-Greater-Baku-Azerbaijan/dp/3659610046/ref=sr_1_9?ie=UTF8&qid=1456340098&sr=8-9&keywords=rovshan*ışılır. Kitab *Amazon*-da satışdadır. Kitabla bu linkdə tanış ola bilərsiniz:







## EMBER LAYİHƏSİ: QONAQ PROFESSORUN VEGETARİANLIĞA DAİR MÜHAZİRƏLƏRİ

Polşanın Lodz Universitetindən professor Dr. Yanuş Çiçura martın 11- 18 - də Xəzər Universitetinin tələbələri üçün özünün hazırladığı "Vegetarianlığın fəlsəfi aspektləri" adlı kursuna aid mühazirə oxumuşdur.

Kurs Avropa Komissiyası tərəfindən maliyyələşdirilən EMBER (Erasmus Mundus təhsil imkanlarının genişləndirilməsi) layihəsi çərçivəsində təqdim olunur. Geniş pedaqoji təcrübəyə malik olan Dr. Çiçura fəlsəfə elmləri üzrə doktorluq dərəcəsini 2005-ci ildə Lodz Universitetində almışdır.

EMBER layihəsi Qərbi-Mərkəzi-Şərqi Avropa və Cənubi Qafqazdan olan iyirmi tərəfdaş və dörd əlaqədar tərəfdaş ali təhsil müəssisələrindən ibarət konsorsiumdur. Layihənin hədəf sahələri iqtisadiyyat, biznes, dillər və sosiologiyadır.

Xəzər Universitetində EMBER layihəsinin koordinatoru Beynəlxalq Əlaqələr Şöbəsinin direktoru Turan Cəfərovadır.

## EMBER PROJECT: VISITING PROFESSOR DELIVERS COURSE ON VEGETARIANISM

For a month starting on March 11, visiting professor Dr. Janusz Ciuciura from the University of Łódź (Poland) delivered a course entitled "Vegetarianism. Philosophical Aspects."

The course was offered within the framework of the EMBER (Erasmus Mundus Broadening Educational Opportunities) project funded by the European Commission. Dr. Ciuciura holds a PhD in Philosophy (2005, University of Łódź) and has extensive teaching experience.

The EMBER project is a consortium that is comprised of twenty partner higher education institutions and four associated partners from Western/Central/Eastern Europe and the South Caucasus. The focus areas of the project are the fields of economics, business, languages, and sociology.

The EMBER Project at Khazar University is coordinated by Ms. Turan Jafarova, Director of the International Affairs Office.



# HAMLET İSAXANLININ MİSİRƏ İŞGÜZAR SƏFƏRİ

# HAMLET ISAXANLI'S BUSINESS TRIP TO EGYPT

## MİSİR ELM VƏ TEXNOLOGİYA UNİVERSİTETİNDƏ

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı martın 21-dən 24-dək Misir Elm və Texnologiya Universitetinin dəvəti ilə Misirin paytaxtı Qahirə şəhərində oldu.

H.İsaxanlının səfəri zamanı – martın 23-də Qahirədə Xəzər Universiteti və Misir Elm və Texnologiya Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalandı.

İmzalama mərasimində Misir Elm və Texnologiya Universiteti rektorluğu, dekanlar və departamentlərin rəhbərləri, həmçinin, digər universitetlərdən gəlmiş professorlar, eləcə də, Azərbaycan Respublikasının Misirdəki səfirliyinin müvəqqəti işlər vəkili Rəfail Bağırov iştirak edirdilər.

Müqavilə ətrafındakı müzakirələrdə Misir Elm və Texnologiya Universitetinin prorektoru professor M. El-Saadani, Mühəndislik fakültəsinin dekanı professor Mahmoud A. El-Kadi, Xarici dillər və tərcümə fakültəsinin dekanı professor Mouşira Suelem, Məzunlarla iş və tədqiqatlar üzrə dekan müavini Sonia M. El-Bakri və Misr Elm və Texnologiya Universitetinin əməkdaşı Jasmin Əl-Kaşif iştirak etdilər.

Əməkdaşlıq müqaviləsinin imzalanması mərasimində Misirin Azərbaycandakı səfirliyinin Mədəniyyət Attaşesi və Misir Mədəniyyət Mərkəzinin müdiri Dr. Əhməd Sami Elaydi, Azərbaycan Respublikasının Misirdəki səfirliyinin müvəqqəti işlər vəkili, Helwan Universitetinin professoru, Azərbaycan Respublikasında Misir Ərəb Respublikasının Mədəniyyət Mərkəzinin keçmiş direktoru professor Adel Darviş və digər şəxslər çıxış etdilər.

## MISR UNIVERSITY FOR SCIENCE AND TECHNOLOGY

Upon invitation from Misr University for Science and Technology, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, visited Cairo, capital of the Arab Republic of Egypt, on March 21-24, 2016.

While Prof. Isaxanli was in Cairo, on March 23rd he signed an agreement between Misr University for Science and Technology and Khazar University. Participants in the signing ceremony included representatives of the president's office, deans, and academic departments of Misr University for Science and Technology as well as visiting professors from other universities and the former Charge d-Affaires of the Azerbaijan Republic to the Arabic Republic of Egypt.

Participants in discussion about the agreement included Professor M. El Saadani, Vice President of Misr University for Science and Technology; Prof. Mahmoud A. El Kady, Dean of the Faculty of Engineering; Prof. Moushira Suelem, Dean of the Faculty of Foreign Languages and Translation; Dr. Sonia M. El-Bakry, Vice Dean for Post Graduate Affairs and Research; and Dr. Jasmin Alkashif, employee of the same university for International Affairs.

Dr. Ahmed Sami Elaydy, Cultural Attache and Director of the Egyptian Cultural and Educational Relations Center of the Embassy of Arab Republic of Egypt to the Azerbaijan Republic; Rafail Baghirov, Charge d-Affaires of the Azerbaijan Republic to the Arabic Republic of Egypt; Prof. Dr. Adel Darwish, Professor at Helwan University and Former Consultant and Director of Egyptian Cultural Center in the State of Azerbaijan; and others made speeches at the event.

## SƏFİRLƏ GÖRÜŞ

Martın 23-də Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında yeni təyin olunmuş səfiri Tural Rzayev Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə görüşdü. Görüşdə Azərbaycan Respublikası ilə Misir Ərəb Respublikası arasında elm, təhsil və mədəni əlaqələrin inkişafı məsələləri müzakirə edildi.

Görüşdə səfirliyin məsul işçisi və Azərbaycan Respublikasında Misir səfirliyinin Mədəniyyət Attaşesi və Misir Mədəniyyət mərkəzinin müdiri Dr. Əhməd Sami Elaydi iştirak edirdilər.

## MEETING WITH AMBASSADOR

On March 23, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, met with H.E. Tural Rzayev, newly-appointed Ambassador of the Republic of Azerbaijan to the Arab Republic of Egypt. They discussed development of cooperation in the fields of science, education and culture between the Azerbaijan Republic and the Arab Republic of Egypt. Elnur Ismayilov, representative of the Embassy, and Dr. Ahmed Sami Elaydy, Cultural Attaché and Director of the Egyptian Cultural and Educational Relations Center of the Embassy of Arab Republic of Egypt to the Azerbaijan Republic, also participated in the meeting.



## AMERİKAN UNİVERSİTETİNDƏ

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı martın 24-də Qahirədə Amerikan Universitetində görüşə dəvət olundu. Görüşdə universitetin müəllimi İman Aziz Soliman, həmçinin, Azərbaycan Respublikasında Misir səfirliyinin Mədəniyyət Attaşesi və Misir Mədəniyyət Mərkəzinin müdiri Dr. Əhməd Sami Elaydi və Mərkəzin keçmiş direktoru professor Adel Darviş iştirak etdilər. Görüşdə qarşılıqlı maraq kəsb edən məsələlər müzakirə olundu.

## AMERICAN UNIVERSITY

On March 24, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, visited American University in Cairo. He met with Dr. Iman Aziz Soliman, Senior Arabic Language Instructor of the same university. Dr. Ahmed Sami Elaydy, Cultural Attache and Director of the Egyptian Cultural and Educational Relations Center of the Embassy of Arab Republic of Egypt to the Azerbaijan Republic; and Prof. Dr. Adel Darwish, Professor at Helwan University and Former Consultant and Director of the Egyptian Cultural and Educational Relations Center of the Embassy of Arab Republic of Egypt to the Azerbaijan Republic; also participated in the meeting, in which issues of mutual interest were discussed.




Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı və onu müşayiət edən Azərbaycan Respublikasında Misir səfirliyinin Mədəniyyət Attaşesi və Misir Mədəniyyət mərkəzinin müdiri Dr. Əhməd Sami Elaydi martın 24-də Misir Ərəb Respublikasının Təhsil Nazirliyində qəbul edildilər. Görüşdə elm və təhsil sahəsində iki ölkə arasında əlaqələr, xüsusilə, Xəzər Universitetinin rolu müzakirə olundu.

Təhsil naziri Dr. Əşrəf M. El-Şihi, nazir müavini Dr. Essam Xamis İbrahim, Dövlət yanında birinci katib professor Hossam El-Malehi, həmçinin, iş adamı Mostafa Abd Almoez görüşdə iştirak etdirdilər.

Görüşdən sonra ziyafət verildi.

On March 24, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, visited the Ministry of Education of the Arab Republic of Egypt together with Dr. Ahmed Sami Elaydy, Cultural Attaché and Director of the Egyptian Cultural and Educational Relations Center of the Embassy of Arab Republic of Egypt to the Azerbaijan Republic. They discussed relations between the two countries in the fields of science and education and especially Khazar University's role in this.

Dr. Ashraf M. El-Shiky, Minister of Higher Education and Scientific Research of the Arab Republic of Egypt; Prof. Dr. Essam Khamis Ibrahim, Deputy Minister of Higher Education and Scientific Research; Prof. Hossam El-Malehy, First Under-Secretary of State; and businessman Mostafa Abd Almoez participated in the meeting. After the meeting, a dinner was served.




Misir Elm və Texnologiya Universitetinin rəhbərliyi Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının Misir tarixinə marağını nəzərə alaraq və müasir Qahirə ilə tanış olması üçün mədəni proqram təşkil etdi. Bələdçi Noureddin Hassan idi. Proqramda Misir ehramları, Misir Milli Muzeyi, Nil çayı, Qahirənin qədim qala, məscid, mədrəsələri və müasir həyatı ilə tanışlıq nəzərdə tutulmuşdu.

On March 22-24, Misr University for Science and Technology organized a cultural program for Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, taking into account his interest in Egyptian history and for the purpose of familiarizing him with modern Cairo as well. The tour guide was Noureddin Hassan. They visited the Giza Pyramid Complex, Egyptian National Museum, the Nile River, and observed Cairo's ancient fortresses, mosques and madrasas as well as its modern life.



## SƏFƏR HAQQINDA "ALAHRAM" QƏZETİNDƏ MƏQALƏ ÇAP OLUNMUŞDUR

Misirin ən böyük və nüfuzlu qəzətlərindən biri olan, gündə bir milyon tirajla çap olunan "Alahram" qəzetinin 26 mart tarixli nömrəsində martın 21-dən 24-dək Misir Elm və Texnologiya Universitetinin dəvəti ilə Qahirədə olmuş Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının işgüzər səfəri haqqında məqalə çap olunmuşdur. Məqaləni bu linkdə oxumaq olar: *http://taawen.ahram.org.eg/NewsQ/24410.aspx.*

## ARTICLE ABOUT TRIP IN ALAHRAM NEWSPAPER

On March 26, an article about Professor Hamlet Isaxanli's visit to Cairo on March 21-24, 2016 was published in the Alahram newspaper, one of Egypt's largest and most reputable newspapers with a daily readership of one million. The full text of the article (in Arabic) is available at the following link:
*http://taawen.ahram.org.eg/NewsQ/24410.aspx*

## MİSİRİN ALİ TƏHSİL NAZİRİ XƏZƏR UNİVERSİTETİ İLƏ ƏLAQƏLƏRDƏN DANIŞIB

Martın 29-da ***report.az*** saytında Misirin ali təhsil naziri Əşrəf M. El-Şihinin fikirlərinə istinadən "Misir Azərbaycan ilə təhsil sahəsində əməkdaşlıq haqqında sazişin yenilənməsində maraqlıdır" başlıqlı yazı yayınlanmışdır. Yazıda nazirin Xəzər Universiteti ilə əlaqələri və bunun nəticəsi kimi, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə bu yaxınlarda Misirdəki görüşü haqqında fikirlərinə yer verilmişdir.

Məqaləni tam şəkildə bu linkdən oxumaq olar:

***http://report.az/elm-ve-tehsil/nazir-misir-azerbaycan-ile-tehsil-sahesinde-emekdasliga-dair-sazisi-yenilemek-isteyir***









## TƏLƏBƏ MƏCLİSİNƏ PREZİDENT SEÇİLDİ

Martın 10-da Xəzər Universitetinin Tələbə Məclisinə prezident seçkiləri keçirildi. Namizədlər arasında Humanitar və sosial elmlər fakültəsinin tələbəsi Xədicə İsmailova (3-cü kurs), Təhsil fakültəsinin təbələsi Türkan Səmədova (3-cü kurs), İqtisadiyyat və menecment fakültəsinin tələbəsi Özal Sülüymanlı (3-cü kurs) və Mühəndislik və tətbiqi elmlər fakültəsinin tələbəsi Qurban Əsgərov (2-ci kurs) iştirak edirdilər. Qeyd edək ki namizədlərin hər biri Tələbə Məclisi Parlamentinin sabiq üzvləridir.

Seçki prosesi səhər saat 10.00-dan 19.00-dək İctimai Əlaqələr və Media üzrə direktor Əlövsət Əmirbəylinin rəhbərliyi və Tələbə Məclisinin sabiq prezidenti Mirzəağa Səmədovun nəzarəti ilə keçirildi.

Seçkilərdə Xəzər Universitetinin ümumi seçici sayının 29%-i (525 nəfər) iştirak etdilər və ümumi səsverməyə əsasən nəticələr belə oldu:

1. Qurban Əsgərov (Mühəndislik və tətbiqi elmlər fakültəsi) – 242 səs;
2. Özal Suleymanlı (İqtisadiyyat və menecment fakültəsi) – 110 səs;
3. Türkan Səmədova (Təhsil fakültəsi) – 93 səs;
4. Xədicə İsmailova (Humanitar və sosial elmlər fakülləsi)– 76 səs.

Bir neçə bülleten etibarsız hesab edilmişdir.

Beləliklə, Tələbə Məclisinin növbəti bir il üçün prezidenti Qurban Əsgərov və vitse-prezident Özal Süleymanlı seçildilər.




## YENİ NƏŞR OLUNAN KİTABDA TƏSİSÇİ HAQQINDA MƏQALƏ

Filoloji elmlər üzrə fəlsəfə doktoru, professor Maarifə Hacıyevanın "İqtisadi və ədəbi təfəkkür işığında" (İqtisad Universiteti Nəşriyyatı, UNEC-85) kitabı nəşr olunmuşdur.

Kitabda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı haqqında da məqalə verilmişdir.

# DEPARTAMENT MÜDİRİMİZİN MÜKAFATI DÖVLƏT QEYDİYYATINA ALINMIŞDIR

Xəzər Universiteti Siyasi elm və beynəlxalq münasibətlər kafedrasının müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru Muxtar Hacızadə 2014-cü ilin sentyabr ayında elmi-pedaqoji fəaliyyəti və Avropa inteqrasiyası ixtisasının tədrisi üzrə peşəkarlığına görə nüfuzlu "Jean Monnet Kürsüsü Sahibi" tituluna layiq görülmüşdü. Həmin vaxt bu barədə məlumat vermişdik.

Xatırladırıq ki, "Jean Monnet Kürsüsü Sahibi" elmi-pedaqoji titul olmaqla Avropaşünaslıq üzrə ixtisaslaşan dünya alim və pedaqoqlarının apardığı tədrisin keyfiyyətinə və innovativliyinə verilən qiymətdir. "Jean Monnet Kürsüsü Sahibi" mükafatı alimlərin Avrointeqrasiyaya aid tədris və araşdırmalarını dəstəkləmək məqsədilə qlobal səviyyədə keçirilən beynəlxalq müsabiqə əsasında Avropa Komissiyası tərəfindən üç illik bir müddətə verilir. Muxtar Hacızadə "Jean Monnet Kürsüsü Sahibi" mükafatını alan ilk və yeganə azərbaycanlıdır.

Mükafat Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 18 mart 2016-cı il tarixində dövlət qeydiyyatına (qeydiyyat nömrəsi: 13/16/1112-A7-477/X/B1) alınmışdır.



## FORSAYT: DƏYİRMİ MASA

Martın 17-də təhsil sahəsində Forsayt tədqiqatlarının aktuallığını və əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Dövlət İqtisad Universitetində dəyirmi masa keçirildi. Xatırladaq ki, müasir dövrdə Forsayt metodlarından istifadə edərək, inkişaf perspektivlərini tədqiq etmək aktuallaşmışdır. Bu metod milli strategiyanın formalaşdırılması, yaranan imkanların və təhlükələrin təsiri, resursların mobilliyi üçün vacib elementdir. Forsayt, xüsusilə, problemli və qeyri-müəyyənlik nümayiş etdirən sahələri əhatə edir, müasir cəmiyyətin formalaşdırılması, toplumda dəyişikliklərin transformasiyasında drayver rolunu oynayır, intellektual potensialın mobilliyini təmin edir. Bu məsələ haqqında son məlumatları çatdırmaq üçün Rusiyadan mütəxəssislər dəvət olunmuşdu.

Tədbirdə Xəzər Universiteti İqtisadiyyat və menecment departamentinin əməkdaşı Aytən Rəhimova da iştirak edirdi.

## ƏMƏKDAŞIMIZ BEYNƏLXALQ SEMİNARDA

Martın 17-də Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi və Ümumdünya Əqli Mülkiyyət Təşkilatı (ÜƏMT) "Bulvar otel"də "Kreativ sənayelərdən faydalanaq: kreativlik və milli inkişaf" mövzusunda beynəlxalq seminar keçirdilər. Seminarda millət vəkilləri, universitet, QHT və media rəhbərləri, o cümlədən "Xəzər Xəbər" jurnalının baş redaktor müavini, əməkdar jurnalist Əlirza Balayev, ÜƏMT əməkdaşları, yerli və xarici mütəxəssislər iştirak edirdilər.

Seminarda Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin sədri Kamran İmanov, ÜƏMT-nin Departamentinin direktor müavini, Kreativ sənaye şöbəsinin müdiri Dimiter Gantchev, Madrid Universitetinin İqtisadiyyat kafedrasının müdiri, professor Jose Luis Zofio`nun məruzələri dinlənildi və müzakirələr aparıldı.

## "XƏZƏR"İN MƏZUNUNUN *İNFORM.AZ*- A MÜSAHİBƏSİ

Martın 28-də ***inform.az*** saytında Xəzər Universitetinin məzunu – kiboksinq, uşusanda, əlbəyaxa döyüş və jiboksinq üzrə döyüşçü, dünya çempionu, hüquqşünas Babək Əliyevlə müsahibə dərc olunmuşdur.

Müsahibəni tam şəkildə bu link vasitəsilə oxumaq olar:

***http://inform.az/index.php?newsid=20772***

***(Məqalə jurnalın 66-cı səhifəsində dərc olunur).***

# MULTİMEDİA MƏRKƏZİNİN ƏMƏKDAŞLARI LƏNKƏRANDA



Xəzər Universiteti Multimedia Mərkəzinin əməkdaşları və könüllüləri martın 24-dən 26-dək Lənkəran şəhərində səyahətdə oldular. Onlar iki gün ərzində Lənkəranın müxtəlif tarixi məkanlarında, səfalı meşələrində oldular.

Hirkan dövlət qoruğuna səyahət edən media əməkdaşları müxtəlif təbiət mənzərələrinin fotoşəkillərini öz kameralarının yaddaşlarına həkk etdilər. Onlar, həmçinin, qoruq işçilərindən bu qoruğun tarixi, yaranması, qorunması barədə məlumat aldılar.












Sonra əməkdaşlar Lənkəran Dövlət Diyarşünaslıq Muzeyinə də baş çəkdilər. Muzey nümayəndələri tələbələrə Lənkəran şəhərinin qədim zamanlardan bu günə qədər olan tarixini eksponatlarla nümayiş etdirdilər.

Səfərin ikinci günündə media işçiləri şəhər mərkəzində, dövlət parkında, "Gənclər Mərkəzi"ndə oldular abituriyentlərə, onların valideynlərinə Xəzər Universiteti haqqında məlumat verdilər, universitet bukletlərini, "Xəzər Xəbər" jurnalının müxtəlif saylarını onlara hədiyyə etdilər.

Multimedia mərkəzinin başqa bölgələrə də səfərləri planlaşdırılır.












# " UŞAQLIQ XATİRƏLƏRİMDƏN MƏNƏ YALNIZ PATRON, TÜFƏNG QALDI..."

*Kikboksinq, uşusanda və əlbəyaxa döyüş üzrə döyüşçü, dünya çempionu, hüquqşünas Babək Əliyev bizə həyatının maraqlı məqamlarını açıqlayıb.*

*İnform.az həmin söhbəti təqdim edir:*

**- Salam Babək, söhbətimizi başlayaq sənin uşaqlıq xatirələrindən. Sənin hələ bugünkü günə - Babək olacağın günə qədər keçdiyin həyat yolundan.**

- Mən əslən qarabağlıyam, Kəlbəcərdə doğulmuşam.

Ana vətən işğal olunanda mənim 6 yaşım vardı. Uşaq idim, amma çox ayıq uşaq idim. Elə hey düşünürdüm ki, mən görən nə edə bilərəm vətən üçün. Bəlkə də bir az pafoslu səslənir, amma bu mənim içimdən gələn və olan şeylərdi deyirəm.

Məni hərdən "post"a yollayırdılar, o vaxt hamı hazır idi döyüşməyə.

Uşaqlıq xatirələrimdən mənə yalnız patron, tüfəng qaldı...

Atam mənə rayonda çox şey öyrətmişdi...

O, Kəlbəcərdə qızıl mədəninin rəisi idi. Həmin dövrdə biz dağın bu biri tərəfində idik. Bir gün atam məni qaldırdı UAZ-ın üstünə, beşaçılanı verdi mənim əlimə. Dedi ki, sənin bir şansın var, tətiyi düz çəksən, ermənini vuracaqsan, yox səhv çəksən, vura bilməyəcəksən. Baxdım ki, bir erməni əyilə-əyilə gəlir, üzü bəri. Mən tətiyi çəkdim, erməni yıxıldı. Sevindim, deməli, bacardım. Təbii, altı yaşlı uşaq üçün beşaçılan tutmaq asan deyildi. Atam mənə kömək eləmişdi, mən sadəcə tətiyi çəkmişdim.

1993-cü ildən Bakıya gəldik - Kəlbəcərin işğalından sonra. Həyətdə uşaqlar velosiped sürəndə, mən həsəd aparırdım onlara. Mənim heç vaxt velosipedim olmamışdı.

Məktəb illərim başladı. Düşmənə nifrət hissi ilə böyüyürdüm.

O vaxt Rembo, Vandam dəbdə idi. Məni həyatdə həmişə döyərdilər. Bir gün atama dedim ki, mən idmana getmək istəyirəm. Öncədən dayımla məsləhətləşmişdim. Dayım mənə çox şey öyrətmişdi, şpaqat açmağı, qantel tutmağı və s.

Atam müəllim seçməyə başladı. Dedi ki, müəllimi düzgün seçsək, qələbə həmişə səninlə olar. Atamın istiqamətləndirdiyi sahədə başladım

idmana. Beləliklə, Ruslan Rzayevin tələbəsi oldum.

Çox cılız uşaq idim. Ruslan müəllim mənə həmişə qız deyirdi. Mən də əsəbiləşərdim deyirdim ki," mən qız deyiləm".

Sonralar bildim, bunu qəsdən edirmiş ki, mən öz üzərimdə çox çalışım.

Bir gün bizi yarışa çıxardılar. Birinci sinifdən idmana getməyimə baxmayaraq, beş il yarışa çıxarmayıblar məni.

Yarışdan qabaq Ruslan müəllim bizə dedi ki, "kim uduzsa, cəzalanacaq", üzünü birdən mənə çevirib dedi ki, "sən uduzsan da olar."

Bu sözlə, elə bil, məni söydü. Dəli oldum, necə yəni "sən uduzsan da olar" ?

Necə yəni hamı udmalıdı, mən uduzsam da olar? Çıxdım ilk yarışa və birinci yeri qazandım.

Daha qız sozu yiğisdi. Artiq mənə "kişisən" deyridilər.

Dərslərimi də yaxşı oxuyurdum. Beləcə, həm idmana gedir, həm də dərslərimi axsatmamağa çalışırdım.

Böyüyürdüm yavaş-yavaş. İllər keçdi, məktəbi bitirən zaman universitet seçimi etməli oldum.

Universitetlərin siyahısına baxanda, Xəzər Universiteti diqqətimi çəkdi. Dedilər ki, sən bacarmazsan, ora çox çətindi.

Mən də hamının açığına on beş universitetdən "Xəzər"-i seçdim . Ela ora da qəbul olundum. Beynəlxalq hüquq fakültəsinə, 365 balla səhv etmirəmsə.

Bilirsiniz, mənim həmişə düşüncəmdə vətən olub. Vətənə sevgi o deyil ki, gərək hərbiçi olasan. Müxtəlif sahələrdə də vətəninə layiqncə xdimət edə bilərsən.

Amma onu da deyim ki, tələbə vaxtlarımda çox əziyyət çəkirdim, həm dərslərin aqırlığı,onunla bərabər idman. Çətin idi. Gecə saat 3-4-ə kimi dərs oxuyurdum, qarşıma məqsəd qoymuşdum ki, universiteti də, idmanı da qüsursuz yola verməliyəm.

Universiteti bitirib əsgər getdim. Bir gün komandir dedi ki, yarış var, bir nəfər bizdən çıxmalıdır. Dedim ki, "mən çıxaram". Soruşdu ki,"sən məgər idmançısan?" dedim ki, "xeyr". Dedi: "bəs necə döyüşəcəksən". Dedim "sizə yarışa çıxmağa adam lazım deyilmi? Mən çıxıram da."

Dedi: "sən yaxşı əsgərsən, əgər udub gəlsən, səni postdan azad edəcəyəm." Dedim: "yaxşı, çox sağ olun".

Bilirdim ki, getsəm, daha bura qayıtmayacağam, yəni götürəcəklər məni idmana.

Çıxdım yarışa, uddum. Hamı dəli olmuşdu ki, kənardan bir əsgər gəlib Xüsusi Təyinatlı Dəstənin (XTD) əsgərlərinə qalib gəlir.

Məni götürdülər XTD-yə. Əsgərlikdən qayıtdıqdan sonra 2-3 il idmandan ayrı düşməli oldum.

**- Öz ixtisasınız üzrə işlədiniz?**

- Bəli, dövlət qulluguna imtahan verdim. İşlərim çox olduğundan idmana vaxt ayıra bilmirdim.

Vaxt olduqca gedirdim, məşqlərə baxırdım. Müəllimimin mənim həyatımda çox böyük rolu olub. İstər idmanda, istərsə də həyatda.

Onu da deyim ki, həyatda bu günədək atamdan və müəllimimdən başqa kimsədən qorxmamışam. Atamla mən həmişə dost olmuşam. Həmişə, hər işdə, hər məsələdə onunla məsləhətləşmişəm.

Ruslan müəllimi də çox sevmişəm və ona böyük hörmətim olub, baxmayaraq ki, o məni çox döyüb.

Elə indinin özündə də o əsəbiləşəndə mən özümü itirirəm.

**- Deməli, Ruslan müəllim sizi döyə-döyə indiki Babək edib...(gülürük).**

- Bir dəfə məni yaxşıca yordu. Məni hovuzda çox üzdürdü, ora-bura. Əldən düşdüm...

O əlində bir çubuq durmuşdu, hovuzun kənarında dayanan kimi vururdu əllərimin üstünə. Elə yorulmuşdum ki, düşündüm bir az dincəlim. Elə çıxmaq istəyirdim ki, əllərimin üstünə necə vurdusa düşdüm suyun dibinə.

Sonra mənə dedi ki, "bilirsənmi niyə belə etdim"?. Dedim ki, "yox". Dedi ki, "bax, həyat da belədir. Qarşına çıxan heç bir maneədən yorulmamalısan. Daim irəliyə addımlamalısan ki, səni əzə bilməsinlər."

Onun mənə öyrətdiyi ən gözəl dərslərdən biri də insan kimi təvazökar olmaqdı.

Məni ilk görən heç kim inanmır ki, mən idmançıyam, çempionam.

Onu da qeyd edim ki, müəllimimin mənə öyrətdiklərinin hesabına mən olduğum bütün sahələrdə - işdə, idmanda, ictimaiyyətdə hörmət qazana bildim.

Zaman keçdi, yenidən qayıtdım idmana. Müəllimim zarafatla dedi ki, "Əfsanə geri dönür".

Mənim öz çəki dərəcəmdə kimsə mənimlə döyüşə çıxmırdı. Hətta bir dəfə ilk döyüşdə 1-ci yerə çıxdım.

İdmana başlayandan sonra çalışdığım iş yerimdən icazə istədim ki, idmana başlamaq istəyirəm. Sağ olsunlar, mane olmadılar.

Başlayandan sonra çoxu dedi ki, nahaq yerə yenidən başladın, onsuz da bundan sonra heç nə əldə edə bilməyəcəksən.

Mənsə kimsəyə qulaq asmadım. Növbəti dəfə yenidən başladım idmana. Gürcüstanda yarış vardı. Mənə təklif gəldi ki, sən iştirak edəcəksən.

Deməli, yarışdan 20 gün əvvəl siyahı verilir sənə, kiminlə döyüşəcəksən öz çəkində. Baxdım siyahıya, gördüm ki, bir ermaninin adı var.

Mən də ki, uşaqlıqdan erməni ovuna həris olmuşam, o qədər içimdə onlara qarşı nifrət hissi var ki...

Dedim, müəllim, bunun haqqında nə məlumatınız var?. Dedi ki, bu M-1 döyüşən olub. Dedim, mən getmək istəyirəm bu döyüşə. Başladım hazırlıq məşqlərinə. İnanın, o qədər gərgin məşqlər edirdik ki, gücdən ayağım çatlamışdı.

Getdik Gürcüstana. İçimdə nifrət hissi. Necə də olmasa, bu, erməni ordusunun zabitiydi, heç olmasa, bir dəfə də olsun, biz tərəfə güllə atmamış olmazdı.

Beləcə, mən də uda-uda gəlirdim, bu da . Mən iki iranlıya qalib gəlmişdim. O da deyəsən, bir rusa. Çıxdıq finala. Finala çıxanda məşqçim mənə dedi ki, Babək, inanıram ki, bizi peşman etməyəcəksən.

Bir söz deyim, gülün. İnanın, elə bilirdim ürəyim çıxırdı yerindən, harasa gedib, qayıdırdı.

Demişdim uduzsam, özümü asacağam. Erməniyə uduzmaq mənim üçün ölüm idi..

Əslində, idmanda erməni, azərbaycanlı və ya başqa kimsə məfhumu rol oynamır. Bilirsiniz, bu, adi erməni oyunçusu olsaydı belə, yenə də içimdə nifrətim soyumayacaqdı. Amma, bunun hərbiçi olması mənim nifrətimi daha da artırırdı.

Beləcə, iki iranlı, bir gürcü rəqibimi məğlub edib finalda Ermənistanın Xüsusi Təyinatlı Ordusunun zabiti Razmik Hopsepyanla qarşılaşdım və onu nokaut etdim.

Döyüşü mən qurmuşdum. Deməli, bizdə belədir də, döyüşü düzgün qursan, sən udacaqsan, yox səhv qursan, uduzacaqsan.

Hər işdə olduğu kimi, burda da ağılın gücü önəmli rol oynayır. Hər kiçik səhv nokauta gətirib çıxarır.

Döyüş başladı. Birinci raundda 6:1 öndə idim. Mən həmişə harda oluramsa, bayrağımız mənimlə olur. Burda da bayrağı asmışdım yuxarıdan ki, udan kimi gəlib altında duracağam.

Mənim köynəyimdə AZE yazıldığı üçün mən köynəyimi çıxarmadan döyüşürdüm. Əslində, köynəksiz olmalıydım. Çıxarmırdım, qoy hamı görsün ki, mən erməni udanda, o kimə uduzub.

Əslində, inanın ki, qalib olmağım deyil, erməni udduğum üçün sevincimdən uçurdum.

Erməni ordusunun zabitini zərbələrimlə məğlub etmişdim.

Çox şükür, uddum. Qayıtdım Bakıya. Hamı məni təbrik edirdi. İşə getdim, hamı məndən danışırdı. Rayonlardan zəng vuraraq, təbrik edirdilər.

Bir müddətdən sonra Almaniyanın Ştutqart şəhərində WJJF və ICO təşkilatının keçirdiyi dünya çempionatına Azərbaycan Kikboksinq Fedarasiyasının rəhbəri Sənan Ağakişiyev tərəfindən dəvət aldım. Keçən ilin oktyabr ayında. Beş gün kikboksinq J-1 (k-1) döyüşdükdən sonra dunya çempionu oldum.

Orda beş gün fasilə etmədən döyüşüm oldu.

Erməniylə döyüşdən qabaq ki, ayağımda çat olmuşdu, o məni yaman incidirdi. Ayağımı keyləşdirib, döyüşə çıxırdım.

Bütün dünyadan, demək olar ki, orda idmançılar var idi.

Mənim bir prinsipim olub həmişə - Azərbaycan bayrağı bütün bayraqlardan gərək yüksəkdə dalğalana. Nə olursa olsun, mən udmalı və bayrağım yüksəklərdə dalğalanmalıdır.

İnanırsınız ki, ayaqımın ağrısını belə unudub, bayrağa baxıb döyüşürdüm. O mənə güc verirdi.

Biz orda iki nəfər idik. Sənan müəllim və mən. Çox sağ olsun. O mənə böyük dəstək oldu.

Finalda Əlcəzair idmançısı ilə qarşılaşdım. Etiraf edim ki, o məndən çox güclü idi. Mən burda, sadəcə, ağlımın hesabına qalib gəldim və dünya çempionu oldum.

**- Siz elə danışırsınız ki, mən sanki müsahiblə danışmıram, əksinə, bir film izləyirəm.**

- Əslində, mənim həyatımın özü elə bir filmdir...

**- Elə bir hiss yaşayıram ki... Sizin qarabağlı olmağınız, o dağların qoynunda böyümәyiniz, bu qədər içdən vətənpərvər olmağınız insana**

**qürur verir.**

- Baxın, sizə bir söz deyim, işindən - peşəsindən asılı olmayaraq, beynəlxalq miqyasda bayrağımızı ucalarda dalğalandıran hər kəsə düşünmədən canımı verərəm. Bu, sadəcə, söz deyil.

**- Babək , bütün sahələrdə olduğu kimi, idmanda da yəqin ki, qısqanclıqlar olur. Buna münasibətiniz.**

- Bilirsiniz, paxıllıq kimsəyə uğur gətirməz. Niyə paxıllıq edib qısqanmalıyam ki... Məndən yaxşı idmançıdırsa, lap yaxşı, mən də elə edim ki, ona bərabər olum və ya üstün olum.

**- Hüquqşünassınız, gələcək planlarınız? Gələcəkdə hakimmi, prokurormu, müstəntiqmi - bu vəzifələrdən hansında çalışmaq fikriniz var?**

- Təbii, inşallah. Gələcək artıq Allahın əlindədir. Allah yazıbsa, prokuror da, hakim də ola bilərsən.

**- Bayaqdan söhbətlərinizdən hiss edirəm, məncə, alın yazısına inanırsınız.**

- Alın yazısı insanın öz əlindədir. Bir də var ki, Allah təalanın insançün çəkdiyi süjet xətti. Bax, mən buna inanıram və kim deyirsə insan öz alın yazısını dəyişə bilməz, mən deyirəm ki,dəyişə bilər. Bu mənim fikrimdi.

**- İki fərqli fikir... Bir - birini təkzib edən iki fikir...**

- Niyə ki? İnsan aqlına güvənib addım atarsa, yazılanı poza bilər... Amma ona güclü iradə lazımdı. Bunu zəif iradəlilər bacarmaz.

**- Bu gün ölkəmizdə çoxluğun narazı qaldığı bir hüquq sahəsi var-məhkəmə sistemi. Bu sahədə olduqca çoxlu mənfi hallar müşahidə olunmaqdadır. Sizcə, bu halların meydana gəlməsində günah birbaşa kimdədi? Hakimlərdəmi yoxsa, əlaqədar qurumlarda?**

- Bir hüquqşünas kimi cavab verim. Əgər bu ölkədə insan öz hüquqlarını bilirsə, ona günahsız yerə hökm oxuya bilməzsən.

Çünki Konstitusiyamızda da yazılıb ki, hakimiyyətin mənbəyi xalqdır. Mən yeddi ildir hüquq sahəsindəyəm, çox müraciət olunub hüquq pozuntularıyla bağlı. Həmişə də o şəxslərə demişəm ki, sən öz hüququnu bilsəydin, sənə qarşı belə şeylər olmazdı.

Hüquq pozuntusu bütün dünyada var. Lap elə Amerikanın özündə də... Hüquq sahəsi elə bir sistemdir ki, çox dərinliyi var. Hüquqşünasın ən əsas işi öz üzərində yorulmadan çalışmaq, yeni qanunlar və qaydalarla yaxından tanış olmaqdı.

İstər hakim, istər vəkil, istər prokuror savadlı olarsa onlar tərəfindən çox təsadüfi hallarda nəsə qanun pozuntusu görmək olar.

**- Babək, keçək Milli Təhlükəsizlik qurumuna qarşı əhali arasında olan anlaşılmaz münasibətə. Bu barədə nə deyə bilərsiniz?**

- Hər şeydən əvvəl, bu sahədə ilk anda yada düşən məfhum "sədaqət" anlayışıdır.

Əgər sən dövlətinə, xalqına, vətəninə sədaqətlisənsə, sən artıq anlayırsan nə deməkdir Milli Təhlükəsizlik.

Nədənsə, Milli Təhülkəsizlik deyən kimi çox insanlarda DTK (KQB) yada düşür. Onu da qeyd etmək istərdim ki, elə sovet dönəmində də Azərbaycan bu sahədə çox güclü uğurlara imza atıb.

Milli Təhlükəsizlik sistemi yaradılandan biz öyünməliydik ki, bizim artıq müstəqil bir qurumumuz var. Ona yaxın olmağı bacarmalıydıq.

Milli Təhlükəsizlik-dövlətin, ölkənin onurğa sütunudur. O bir az laxladısa, çox mənfi hallar meydana çıxa bilər. Necə ki, son zamanlar bu sistemdə aşkarlanan cinayət xarakterli hallar. Ona görə də, bu sahəyə diqqət elə xalq tərəfindən də güclü olmalıdır.

Xalq özünü Milli Təhlükəsizlik orqanlarından ayrı hiss etməməlidir. Hər kəs diqqətli olmalıdır. Son günlər Türkiyədə, Belçikada baş verən terror aktları, bizi sevməyən güclərin müxtəlif vasitələrlə bizlərin də gözünü qorxutmaq cəhdlərini hamı hiss etməli və bu quruma daha yaxından kömək etməlidir.

Bir sözlə, hər şeydən öncə dövləti, vətəni düşünməyi bacarmalıyıq, vəssalam...

**Xalidə Xalid,**
*İnform.az*
*Fotolar:*
**İsmayıl**
*28.03.2016*



# MAGİSTRATURADA DİSSERTASİYA MÜDAFİƏLƏRİ

Martın 3-də İngilis dili və ədəbiyyatı departamentinin magistr tələbələri aşağıdakı mövzularda dissertasiya müdafiə etdilər: **Yeganə Bağırova** - *"İngilis dilində məsdər və məsdər birləşmələrinin linqvistik xüsusiyyətləri (İngilis dilində məsdərin Azərbaycan dilinə tərcüməsi)"*; **Nərgiz Mirzəyeva** - *"P. B .Şelli və Con Kits yaradıcılığının müqayisəli təhlili"*; **Leyla Huseynli** - *"Çarlz Dikkensin "Böyük ümidlər" romanında metaforların və simillərin Azərbaycan dilinə tərcüməsi"*; **Marina Lətifova** - *"Skot Fitsgeraldın "Möhtəşəm Qetsbi" romanında bədii ifadə vasitələri və onların Rus dilinə tərcüməsi"*. Hər dörd iş universitetin Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri, fəlsəfə doktoru Eldar Şahgəldiyevin rəhbərliyi ilə yerinə yetirilmişdir.

Müdafiə şurasının sədri, Bakı Dövlət Universiteti İngilis dili kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Bəylər Hacıyevin rəhbərliyi ilə müzakirə keçirildikdən sonra işlər müsbət qiymətləndirildi.

Martın 7-də Psixologiya departamentinin magistr tələbələri aşağıdakı mövzulardada dissertasiya müdafiə etdilər: **Qənirə İsgəndərova** – "Ermənistan-Azərbaycan: Dağlıq Qarabağ münaqişəsində məcburi köçkün olmuş insanlara tətbiq olunan sosial-psixoloji yardım proqramlarının tətbiqi" (*elmi rəhbər: fəlsəfə doktoru, dosent Elmina Kazımzadə*); **Nuranə Quliyeva** – "Azərbaycanda autizm problemi əlamətləri və korreksiya üsulları" (*elmi rəhbər: fəlsəfə doktoru Eldar Şahgəldiyev*); **Aydan Xasməmmədzadə** – "Psixoaktiv maddələrin istifadəsi nəticəsində şəxsiyyətin psixopatizasiyası" (*elmi rəhbər: fəlsəfə doktoru Azad Manuçehri Lalei*); **Sevinc Əhmədova** – "Gənc tələbə oğlanlar arasında siqaret çəkmə ilə depressiya arasında əlaqə" (*elmi rəhbər: fəlsəfə doktoru, dosent Ləman Verdiyeva*).

Müdafiə şurasının sədri, Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsinin dekanı fəlsəfə doktoru, dosent Cabir Xəlilovun rəhbərliyi ilə müzakirə keçirildikdən sonra işlər müsbət qiymətləndirildi.

***

Martın 15-də Siyasi elm və beynəlxalq münasibətlər departamentinin magistr tələbələri aşağıdakı mövzularda da dissertasiya müdafiə etdilər: **Xəyalə Məmmədova** – "Dmitri Medvedyevin prezidentliyi və sonrakı dövrdə Azərbaycan-Rusiya əlaqələri" (*ingilis dilində, elmi rəhbər – fəlsəfə doktoru Muxtar Hacızadə*); **Aygün Qurbanova** – "Azərbaycan və Türkmənistan ikitərəfli əlaqələri: yeni istiqamətlər və problemlər" (*ingilis dilində, elmi rəhbər – fəlsəfə doktoru Rəşad Hüseynov*).

Müdafiə şurasının sədri, Siyasi elm və beynəlxalq münasibətlər departamentinin dosenti Kənan Allahverdiyevin rəhbərliyi ilə müzakirə keçirildikdən sonra işlər müsbət qiymətləndirildi.

# TARİXÇİ TƏLƏBƏLƏRİMİZ MÜSABİQƏNİN QALİBİ OLDULAR




Azərbaycan Resbuplikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının Tarix işçi qrupunun təşkilati dəstəyi ilə təşkil edilmiş "Gənc tarixçilər arasında araşdırma müsabiqəsi"nin nəticələri martın 14-də Azərbaycan Dövlət Pedaqoji Universitetdə keçirilən tədbirdə elan olunmuşdur.

Müsabiqədə Xəzər Universitetinin tarixçi tələbələri Həmidə Qəhrəmanova, Vahid Həsənov və Nurməmməd Məmmədov "Qarabağ bölgəsinin coğrafiyasına və tarixinə qısa baxış" məqaləsi ilə iştirak etmişdilər. Onlar birinci yeri tutaraq, diplomla təltif olundular.





## XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİ EKSTREMİZMƏ QARŞI MÜBARİZƏ APARIRLAR

Martın 15-də Xəzər Universitetinin marketinq fənni üzrə müəllimi Sana İmranın başçılığı ilə İqtisadiyyat və menecment fakültəsinin tələbələrindən ibarət komanda *EdVenture Partners* (EVP) şirkətinin Biznesin inkişafı üzrə vitse-prezidenti Kier Keysi ilə *Skype* görüşü keçirdi. Xəzər Universitetinin komandası maliyyə, biznesin təşkili və idarə edilməsi, menecment və marketinq ixtisasları üzrə təhsil alan tələbələrdən ibarətdir.

*Skype* görüşü zamanı tələbələr *Peer to Peer* (P2P) layihəsinin Ekstremizmə qarşı Mübarizə Proqramının iştirakçıları olaraq sosial media kampaniyalarına dair layihələrini təqdim etdilər. Bu proqram ABŞ Dövlət Departamentinin Təhsil və Mədəniyyət Məsələləri Bürosu tərəfindən dəstəklənir və *EdVenture Partners* marketinq şirkəti tərəfindən maliyyələşdirilir.

P2P proqramı bir semestr ərzində müsabiqə yolu ilə öz icmalarında ekstremizmə qarşı mübarizəyə dair ən innovativ və səmərəli sosial və rəqəmsal kampaniyaları yaratmaq üçün ABŞ-ın və digər ölkələrin müxtəlif universitetlərinin tələbə komandalarını bir araya gətirir.

Proqramda Xəzər Universitetinin komandasının iştirakı Xəzər Universitetinin Beynəlxalq Əlaqələr Şöbəsi və İqtisadiyyat və menecment fakültəsi ilə birgə koordinasiya edilir.

## DEVELOPMENT DIRECTOR AT SEMINAR IN SERBIA

On March 16-18, Raziya Isayeva, Khazar University Development Director, visited Serbia to attend the Higher Education Reform Experts (HERE) seminar organized at University of Novi Sad. The seminar was organized in cooperation with the SPHERE Consortium (Support and Promotion for Higher Education Reform Experts), consisting of the University of Barcelona (Coordinator) and the European University Association (EUA).

The seminar was entitled "Joint Programmes and Degrees: Strategy, Management, Implementation" and was hosted by The Education, Audiovisual and Culture Executive Agency (EACEA).

The seminar's 76 participants were from different countries. They included representatives of educational institutions and European experts. The seminar addressed the issues of designing and managing Joint Programmes and Joint Degrees. Many successful case studies were presented and discussed.

HERE is the network of Higher Education Reform Experts, a pool of experts supporting the modernization of higher education in countries neighboring the EU. Their activities are financed through the Erasmus+ programme and coordinated at the local level by the National Erasmus+ Offices (NEOs).

## EFFEKTLİ ÜNSİYYƏT QURMAQ BACARIQLARI İLƏ BAĞLI TƏLİM





Martın 17-də Xəzər Universiteti Karyera mərkəzinin təşkilatçılığı ilə Uğur İnkişaf Mərkəzinin psixoloq-konsultantı Nərgiz Qaravəliyeva tələbələr üçün təlim keçirdi. Təlimçi tələbələrə effektli ünsiyyət qurmaq bacarıqları haqqında məlumat verdi. Həmçinin, təlimdə ünsiyyət modelləri, insanlar arasında ünsiyyət, ünsiyyət sistemində əsas və vacib amillər, ünsiyyətdə "Sən" dili, "Mən" dili, effektli ünsiyyət qurmağa manea törədən faktorlar izah edildi.

Sonda tələbələri maraqlandıran suallar cavablandırıldı.

## TƏLƏBƏLƏR "BƏRK TULLANTILARIN İDARƏ OLUNMASI" HAQQINDA MÜHAZİRƏ DİNLƏDİLƏR

Martın 17-də Coğrafiya və ətraf mühit departamentinin təşkilatçılığı ilə Təhsil fakültəsinin tələbələri üçün açıq dərs təşkil olundu.

Tədbirdə Təmiz Şəhər MMC-nin nümayəndəsi Sabit Zeyniyev iştirak edirdi. O, tələbələrə Bakı və Abşeron yarımadasında "Bərk tullantıların idarə olunması" haqqında mühazirə oxudu.

Açıq dərsdə, həmçinin, Böyükşor gölünün təmizlənmə problemləri də müzakirə edildi.





## UNİVERSİTETİN MÜƏLLİM HEYƏTİ ÜÇÜN TƏLİM-SEMİNAR

Martın 16-da "Əlilliyi olan şəxslərin Azərbaycanın ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması" (ESFIDIP) adlı Tempus layihəsi çərçivəsində Xəzər Universitetində dərs deyən müəllim heyəti üçün təlim-seminar keçirildi. Təlimçi Mələk Kərimova (Humanitar və sosial elmlər fakültəsinin dekan müavini) iştirakçılara əlillik, onun xüsusiyyətləri, onlara yanaşma tərzi və tədris metodikası haqqında geniş məlumat verdi.

Tədbir zamanı mövzu ətrafında fikir mübadiləsi aparıldı və iştirakçıların sualları cavablandırıldı.

## XƏBƏR SAYTLARI ƏMƏKDAŞIMIZIN MÜKAFATININ DÖVLƏT QEYDİYYATINA ALINMASI HAQQINDA MƏLUMAT YAYMIŞDIR

Xəzər Universitetinin Siyasi elm və beynəlxalq münasibətlər departamentinin müdiri, siyasi elmlər üzrə fəlsəfə doktoru Muxtar Hacızadənin elmi-pedaqoji fəaliyyətinə və Avropa İnteqrasiyası ixtisasının tədrisi üzrə peşəkarlığına görə nüfuzlu "Jean Monnet Kürsüsü Sahibi" tituluna layiq görülməsinin Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 18 mart 2016-cı il tarixində dövlət qeydiyyatına (qeydiyyat nömrəsi: 13/16/1112-A7-477/X/B1) alınması haqqında Azərbaycanın bir sıra xəbər saytları məlumat yaymışdır:

*http://azertag.az/xeber/Azerbaycanli_alim_nufuzlu_beynelxalq_mukafata_layiq_gorulub-938011*
*http://sia.az/az/news/social/535389* və s.

## KHAZAR FACULTY MEMBER'S INTERNATIONAL TITLE REGISTERED BY GOVERNMENT, PUBLICIZED ON NEWS SITES

Dr. Mukhtar Hajizada, Head of the Department of Political Science and International Relations at Khazar University, was awarded the world-recognized Jean Monnet Chair for his academic activity and professionalism in the educational field of European Union Integration which was registered by the Ministry of Justice of the Azerbaijan Republic on March 18, 2016 (with registration number 13/16/1112-A7-477/X/B1). The registration was publicized on many news sites; including the following:

*http://azertag.az/xeber/Azerbaycanli_alim_nufuzlu_beynelxalq_mukafata_layiq_gorulub-938011*
*http://sia.az/az/news/social/535389*



# САМЕД ВУРГУН



## *Поэт, ты рано постарел*

Поэзия прекрасна, спору нет,
Но и от горя не уйдет поэт.
Так день за днем, пока придет пора,
Ответить нам, куда вся жизнь ушла?
Встречая говорят мне: «Сколько лет,
Тебя не видели, Как жизнь твоя , поэт?
Что ж  так ты сильно поседел?
Поэт, ты рано постарел!

Вчера красавица букет мне поднесла,
Застыла вся, скрыть жалость не смогла.
Стояла  молча, розы на руках,
Я сотни горьких слов прочел в ее глазах.
Вдруг улыбнулась, но зачем тогда,
С ресниц, сорвавшись, падает слеза?
Я в ней себя увидел – Поседел,
Поэт, ты рано постарел!

Ты был охотником на славу,
Округу всю исколесил,
И с гор спускаясь на равнину,
Не раз косулю приносил.
Но что же пули мимо все летят?
Неужто и они сказать хотят,
Как вздох, ко мне что с эхом долетел,
Поэт, ты рано постарел.

То в славе, то в тревоге дни летят,
Конец есть песни каждой, говорят.
Но даже дьявол, что любовь предал,
Кто в жизни слова правды не сказал,
Огнем сердца друзей не раз сжигал
А дружбу взяткой предлагал,
Змеей над ухом прошипел:
«Поэт, ты рано постарел».

Я поседел, прошли мои года,
Но сердце молодо, хватает в ней огня.
Я поседел, но это не беда,
Бросать перо еще мне не пора…
Любовь моя и Родина моя,
Я знаю, мне не скажут никогда,
Что все прошло, что песню спел,
Поэт, ты рано постарел.



## *Я не спешу*

Друзья, бокал поднимем доброго вина,
Как воздух чист, как эта ночь светла!
Глоток вина и прочь летят года,
Вновь молодость вернулась к нам в сердца.
Я разных на земле встречал людей,
И от бесед не уставал в кругу своих друзей.
Будь бесконечна ночь, день не спеши,
Как юность мне вернуть назад, скажи?
Рассвет уж близок, мне пора идти,
Но как друзей оставить и уйти?!
Я каждый миг бы сделал бесконечным,
Чтоб жизнь нам всем казался садом вечным.
Горит костер, журчит ручей игриво,
Ашуг сыграй, да так чтоб все запело.
Уходит ночь, но с ней я не уйду,
Мне некуда спешить, я не спешу.

И ты любимая, не говори мне - стар,
Что в жизни видел я?- Нет, я не устал.
Я странник, отдыхающий в пути,
Нам долго по земле еще с тобой идти.
Свой белый парус я отдал судьбе,
Куда прибьет меня, к какой земле?
Но ты не бойся за меня в пути,
Мне долго по земле еще идти.
Реку как прежде проплыву шутя,
Достану молнию с небес, попросишь лишь огня.
Но все ж гонец, не торопись, прошу,
Мне некуда спешить, я не спешу.

Средь гор покрытых шапками снегов,
И ты, мой друг, охотник, не спеши,
Гляди, поляна у ручья полна цветов,
Замедли шаг охотник, не спеши.
Проститься должен с каждым я цветком,
К губам прижать их нежные листки,
Не то обидятся они, смотри, как роза плачет,
Роняя тихо слезы - лепестки.
Куда лететь как ветер? Отдохну,
Мне некуда спешить, я не спешу.

Пусть туча медленнее мчится надо мной,
Река замедли бег, хотя б на миг постой,
Дай насмотреться на твою красу.
Дай походить, дай сбить с цветов росу,
Тебя такой я в сердце унесу.
Но ты не плачь, прошу, я не устал,
Я сокол раненный, я многое видал,
Я снова жизнь хотел бы пережить,
Чтоб в день не день, а месяцы прожить.
И каждый день, вставая по утру,
Ночь провожая, вновь стихи пишу.
И книгу жизни завершить,
Я не спешу,
Я не спешу!

***

## *Народная песня*

### *(Qoy yarım gəlsin, ay nənə)*

Я влюблен, ты мой напиток
Мой шафран, напой меня.
Я тот день благословляю,
Что в мой дом введет тебя.

Мама, пусть придет любимый,
Мама, не гони его.
У дверей томится милый,
Мама, пожалей его.

В Карабахе есть луга,
Там ягнятам нет числа.
Если любят две души,
Не преграда им река.

Мама, пусть придет любимый,
Мама, не гони его.
У дверей томится милый,
Мама, пожалей его.

Я Араз, влюблен в Куру,
Соловьем цветам пою.
Не тревожьте, я печален,
Без любимой я умру.

Мама, пусть придет любимый,
Мама, не гони его.
У дверей томится милый,
Мама, пожалей его.

**Перевод Рагима Гусейнова**

# DAVAMLI İNKİŞAF KONTEKSTİNDƏ EKOLOJİ İQTİSADİYYAT



**SEVİNC ŞƏFİYEVA,**

*Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının magistrantı*

Bazar münasibətləri şəraitində davamlı inkişaf kontekstində ekoloji iqtisadiyyatın fəaliyyət dairəsi təkcə konkret bir ölkəni deyil, eyni zamanda, bütün dünya ölkələrini əhatə edərək genişlənir. Azərbaycanda davamlı inkişaf kontekstində ekoloji iqtisadiyyat aktiv şəkildə ölkənin iqtisadi, siyasi, eləcə də sosial inkişafına təsir göstərir.

"Davamlı inkişaf" termini ingliscə "sustainable development" terminin tərcüməsi kimi qəbul edilmişdir. XX əsrin sonu – XXI - ci əsrin əvvəllərində cəmiyyətin artan tələbləri ilə biosferanın nisbətən məhdud imkanları arasındakı ziddiyyətin insanın sonrakı varlığını təhlükə altına alması daha aydın duyulmağa başlandı. Odur ki, bəşəriyyətin ekoloji cəhətdən təhlükəli inkişafı məsələsi elmi axtarışda və ümumilikdə ictimai şüurda ön plana keçmişdir (6, s. 291). Məhz bütün bu müzakirələrin nəticəsi olaraq 1990-cı ildə "Beynəlxalq Davamlı İnkişaf" İnstitutu yaradıldı. Bu institut davamlı inkişafa aşağıdakı tərifi vermişdir: "Davamlı inkişaf vahid ətraf mühit, iqtisadi səmərəlilik və xalqların rifahının birliyini ifadə edir".

Məhz BMT-nin ətraf mühit və inkişaf üzrə 1992-ci ildə Rio de-Janeyroda keçirilən konfransı bu problematikanın dərk olunma səviyyəsinin vacib göstəricisinə çevrildi. Bu konfransda müasir cəmiyyətin davamlı inkişafa keçmə strategiyası (konsepsiyası) qəbul edildi (4, s. 25).

Davamlı insan inkişafı ölkənin yalnız iqtisadi artımına deyil, eyni zamanda, onun nəticələrinin obyektiv və ədalətli paylanmasına, ətraf mühitin qorunmasına, insanların rifah halının yüksəldilməsinə şərait yaradır. Bu inkişaf əsas diqqəti yoxsullara verir, onların yaşam imkanlarını artırır. Davamlı inkişaf bəşəriyyət üçün, insan və təbiət üçün mövcud vəziyyətin yaxşılaşdırılması, cəmiyyətdə iş yerlərinin artması üçün olan inkişafdır.

Müasir dövrdə dünya gündəmində olan əsas məsələlərdən biri - ətraf mühitin mühafizəsi və ekoloji problemlərin həll edilməsi davamlı inkişaf üçün də vacib amillərdən biridir. Son illər ölkəmizdə qarşıya qoyulan məqsədlərin əsasını ekoloji iqtisadiyyatın təkmilləşdirilməsi, ətraf mühitin mühafizəsi və təbii resurslardan səmərəli istifadə təşkil edir. Bu istiqamətdə ölkəmizdə müəyyən işlər görülmüşdür. Bu baxımdan Azərbaycanda davamlı inkişafı təmin etmək məqsədilə ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə edilməsinin hüquqi bazası yaradılmışdır. Respublikamızda ekoloji təhlükəsizlik, əhalinin sağlamlığı və ətraf mühitlə bağlı 20-dən çox milli

qanun qəbul edilmişdir. Buna misal olaraq «Əhalinin sağlamlığının qorunması haqqında» (25.07.97), «Yerin təki haqqında» (13.02.98), «Ətraf mühitin mühafizəsi haqqında» (08.06.99), «Ekoloji təhlükəsizlik haqqında» (08.06.99), «Atmosfer havasının qorunması haqqında» (03.03.2001), "Əhalinin ekoloji təhsili və maarifləndirilməsi haqqında" (10.12.2002), "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" (16.06. 2008) və s. qanunları göstərmək olar.

Bu sahədə aparılan tədbirlərdən ən mühümü 2001-ci ilin may ayında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaradılmasıdır.

Azərbaycan Respublikasında davamlı inkişaf kontekstində ekoloji iqtisadiyyat ilə bağlı qeyd etdiklərimizdən belə bir nəticəyə gələ bilərik ki, sürətlə dəyişən ətraf mühit şəraitində davamlı inkişafa nail olmaq istəyən hər bir ölkə bir tərəfdən ətrafında meydana gələn dəyişikliklərə uyğunlaşmanı təmin etməyə çalışarkən, digər tərəfdən də ətrafı təsir və ya istiqamətləndirməklə qlobal rəqabətin aparıcı amili olmağa səy göstərir. Bu məzmunda qlobal rəqabətin ən əhəmiyyətli vasitələrindən biri də yenilik yönümlü olmaqdır.

Yeniliklə əlaqədar olaraq ədəbiyyatda fərqli təsnifatlar edilməkdədir. Ancaq ümumi olaraq dörd növ əsas götürülür: məhsul yeniliyi, proses yeniliyi, marketinq yeniliyi və təşkilati yenilik. Son illərdə ətraf məsələlərin əhəmiyyət qazanmasıyla birlikdə, ədəbiyyatda araşdırılan bir başqa yenilik növü isə **eko-yenilikdir** (ecological / eco-innovation). Mənim mövzum da məhz bu yeniliyi əhatə edir. Ən əvvəl bildirmək istəyirəm ki, ətraf mühit üçün edilən bu yeniliklər müxtəlif müəlliflər tərəfindən fərqli şəkildə adlandırılmışdır. Məsələn, yaşıl yenilik (Chiou, Chen və s.), eko-yenilik (Arundel & Kemp, Cheng & Shiu və s.), davamlı yenilik (Bos-Brouwers). Ancaq qeyd etdiyimiz terminlərdən daha çox eko-yenilik anlayışına üstünlük verilir.

Elmi texniki tərəqqi inkişaf etdikcə davamlı inkişafa mənfi təsir göstərən ekoloji problemlər də artmağa başlamışdır. Nəticə olaraq qeyd edə bilərik ki, məhz bu problemlərin aradan qaldırılması və davamlı inkişafın daha da stimullaşması üçün aşağıdakıların nəzərə alınması məqsədəuyğun olardı:

- Eko-yenilik tullantıları azaltmalı, tullantıların yenidən emalını təşkil etməli, yeni enerji qaynaqları tapılmalı və ətrafı qorumaq üçün yeni yollar aşkarlanmalıdır;

- Davamlı insan inkişafı konsepsiyasına görə irqindən, cinsindən, milliyyətindən, dini mənsubiyyətindən və yaxud coğrafi mövqeyindən asılı olmayaraq insan inkişafı üçün mövcud olan və ya ola biləcək bütün məhdudiyyətlər aradan qaldırılmalıdır;

- Əlillər və müdafiəyə ehtiyacı olan qruplar üçün də mövcud ola biləcək və onların vəziyyəti ilə əlaqədar bütün məhdudiyyətlər qaldırılmalıdır;

- Təhsil insan inkişafının ən mühüm tərkib hissələrindən biridir və insan inkişafı indeksində də 3 əsas komponentdən biri kimi əks olunmuşdur. Bu baxımdan bütün dünya ölkələrində əhalinin savadlanmasına diqqət artırılmalıdır;

- Ekoloji təsirləri nəzərə almadan yaradılan məhsullar istər istehsal, istərsə də yarımfabrikat mərhələsində problemlərə səbəb olur. Buna görə də, müəssisələr hər bir yeni məhsul istehsalını ekoloji tələblərlə ciddi əlaqələndirməlidirlər.

Bütün bu sadalanan faktlar, hal-hazırda dünya təcrübəsində gedən proseslərin dinamikliyi və hadisələrin axarının proqnozlaşdırılmasının çətinliyi deməyə əsas verir ki, davamlı inkişaf kontekstində ekoloji iqtisadiyyatın tənzimlənməsi mexanizminin tədqiqi və inkişaf istiqamətlərinin müəyyən-ləşdirilməsi kifayət qədər aktual mövzudur.

Ümidvarıq ki, ekoloji problemlərin aktuallaşdığı bugünkü şəraitdə atılan addımlar, dünya təcrübəsindən geniş istifadə ölkəmizə yeni uğurlar qazandıracaq və çox da uzaq olmayan gələcəkdə təmiz ekoloji mühit şəraitində davamlı insan inkişafına nail ola biləcəyik.

**Ədəbiyyat**

1. Ali Təhsil və Cəmiyyət. Elmi-metodik jurnal. Bakı, 2012, №4
2. Azərbaycan bu gün və sabah. Bakı, 2007
3. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı. İnsan inkişafı tədris vəsaiti. Bakı, 2014
4. Ələkbərov U.K. Davamlı insan inkişafı: Ali məktəblər üçün proqram və kursun qısa məzmunu. Bakı: Təhsil, 2006
5. Ələkbərov U.K. Davamlı insan inkişafı və ekoloji sivilizasiyanın əsasları. Bakı, 2013
6. Əsgərov Ə.A., Hüseynov E.M., Hüseynov S.Y. Davamlı insan inkişafı. Bakı, 2009

# DÜNYANIN ƏN GÖZƏL KİTABXANALARI

*TUT.BY xəbər portalı memarlıq nöqteyi nəzərindən dünyanın 28 ən gözəl və qeyri-adi kitabxanasını təqdim etmişdir. Oxucularımızı onlarla tanış etməyə başlayırıq.*



28.

## VİKTORİYA DÖVLƏT KİTABXANASI

AVSTRALİYA

**KİTABXANANIN FONDUNDA 1,5 MİLYON NÜSXƏ KİTAB, 16 MİN DÖVRİ NƏŞR QORUNUB SAXLANILIR. KİTABXANANIN NADİR İNCİLƏRİ ARASINDA ŞƏHƏRİN ƏSASINI QOYANIN GÜNDƏLİYİ VƏ KAPİTAN CEYMS KUKUN ƏSƏRLƏRİ VARDIR.**

**GENİŞ MƏLUMAT:**
***http://news.tut.by/culture/406741.html***

ÇİN

## BERİTOU KÜTLƏVİ KİTABXANASI

**BU KİTABXANA 2006-CI İLDƏ “YAŞIL İNŞAAT” PRİNSİPİ İLƏ TİKİLMİŞDİR.**

**GENİŞ MƏLUMAT:**
***http://news.tut.by/culture/406741.html***



27.




## Valideynlərin və şagirdlərin nəzərinə!

Xəzər Universitetinin Dünya məktəbi 2016-2017-cı tədris ilində I-XI siniflərə şagird qəbulu elan edir:

Qəbul müsabiqə yolu ilə həyata keçirilir.

Təhsil 3 dildə (Azərbaycan, rus, ingilis) aparılır.

Azərbaycan və rus bölmələrində ingilis dili ikinci dil kimi tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman, çin dilləri də öyrədilir.

Məktəbdə təcrübəli pedaqoqlar, o cümlədən xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar. Burada savadla yanaşı, tərbiyə də mühüm yer tutur.

Dünya məktəbi beynəlxalq statuslu məktəbdir. O, Beynəlxalq Bakalavr Təşkilatının (İnternational Baccalaureate Orqanization – IBO) üzvüdür. Məktəbdə IB Diplom Proqramı fəaliyyət göstərir.

# Dünya məktəbi

X sinif şagirdləri tam orta təhsillə yanaşı, öz istəkləri ilə Beynəlxalq Bakalavr Təşkilatının Diplom Proqramında təhsil ala bilərlər. Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər.

Diplom proqramında təlim ingilis dilindədir. Təhsil müddəti iki ildir.

Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar.

# Məktəbəqədər hazırlıq

2016-2017 –cı il üçün hazırlığa uşaq qəbulu davam edir.

Hazırlıqda 4-5, 5-6 yaşlı uşaqlar üçün Azərbaycan, ingilis və rus dillərində qruplar təşkil olunub. Bütün qruplarda əlavə iki dil (Azərbaycan, ingilis, rus) tədris edilir.

Gündəlik dərs proqramından əlavə, Şahmat, Kompüter, Psixologiya, Rəsm-əmək, Rəqs, Dram və Musiqi dərsləri keçirilir.

Ünvan: Bakı, Əcəmi Naxçıvani 9

Dünya məktəbi
Tel.: (+99412) 563 59 40 /47/48
Mob.: (+99470) 844 08 88
E-mail: info@dunyaschool.az

Məktəbəqədər hazırlıq
Tel.: (+99412) 563 59 43/ 45
Mob.: (+99470) 560 15 18
E-mail: bagca@dunyaschool.az

http: //dunyaschool.az




**Universitetdə bakalavr pilləsində aşağıdakı ixtisaslar üzrə kadr hazırlığı aparılır:**

**I qrup üzrə:**

- Kompüter elmləri
- Neft-qaz mühəndisliyi
- Kompüter mühəndisliyi
- İnşaat mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Fizika müəllimliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
- Kimya mühəndisliyi
- Biotibbi texnika mühəndisliyi
- Mexanika mühəndisliyi

**II qrup üzrə:**

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Tarix müəllimliyi
- Coğrafiya müəllimliyi
- Regionşünaslıq (regionlar üzrə)
- Beynəlxalq münasibətlər

**III qrup üzrə:**

- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- Xarici dil (ingilis dili) müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Filologiya (İngilis dili və ədəbiyyatı)
- Filologiya (Azərbaycan dili və ədəbiyyatı)
- Politologiya
- Tərcümə (ingilis dili və digər dillər)
- Dizayn

**IV qrup üzrə:**

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Psixologiya

**Ünvan: Məhsəti küçəsi, 41**
**(Neftçilər metrosunun yaxınlığında)**
**Əlaqə telefonları: (012) 323-93-13, (012) 408-81-78, (012) 421-79-27**
**Faks: (012) 498-93-79**
**İnternet: http//www.khazar.org**

# XƏZƏR UNİVERSİTETİ

Xaricdə ən çox tanınan,
xaricə ən çox tələbə göndərən,
xaricdən oxumağa tələbələrin ən çox gəldiyi,
xarici müəllimlərin ən çox işlədiyi ali məktəbdir.
siteti Azərbaycanda yeganə universitetdir ki, onun tədris siyasəti və
Xəzər Univer diplomları Avropa və Amerikanın universitetləri tərəfindən tanınır.

Xəzər Universiteti dünyada ali məktəblərin reytinqinin müəyyənləşdirilməsi sahəsində nüfuzlu təşkilatların reytinq cədvəlində Azərbaycan ali məktəbləri arasında həmişə birinci olmuşdur.

QS (World University Rankings) təşkilatının 2015-ci il sentyabrın 15-də elan etdiyi reytinq cədvəlinə əsasən Xəzər Universiteti dünyanın ən yaxşı 700 üniversiteti arasında yer almışdır.

2015-ci il oktyabrın 21-də QS (World University Rankings) təşkilatı 2015/16-cı tədris ili üçün inkişaf etməkdə olan Avropa və Mərkəzi Asiya ölkələri universitetlərinin 2-ci illik reytinqini müəyyənləşdirmişdir. Xəzər Universiteti Azərbaycandan ilk 70 ali təhsil müəssisəsi arasında yer almış tək universitetdir.

***

*Xəzər Universiteti ilk gündən beynəlxalq təcrübəyə əsasən quruldu və Azərbaycanda ingilis dilində tədrisə keçən ilk universitet kimi tanındı. Təhsil sahəsində ən qabaqcıl ölkələrin təcrübəsini öyrənmək və tətbiq etmək ilkinliyi də məhz Xəzər Universitetinə nəsib oldu. Dünya təhsil məkanında qabaqcıl mövqeyi və nüfuzu ilə diqqətçəkən Universitetin beynəlxalq əlaqələri yalnız təlim-tədris sahəsində deyil, yüksək ixtisaslı dünya insanı hazırlığında da əhəmiyyət daşıyır. Demokratizm və humanizm, plüralizm və şəffaflıq, müasirlik və təşəbbüskarlıq, ən son təlim texnologiyalarından istifadə, beynəlxalq proqram və layihələrdə fəallıq və digər bu kimi hallar bütünlüklə Universitetdə işgüzarlıq şəraiti yaradır, tələbələrin fəallığı və müstəqilliyini təmin edir.*

***Professor Əjdər Ağayev,***
***Azərbaycan Təhsil Şurasının sədri***

## Universitetin maddi-texniki bazası

Məhsəti küçəsi, 41 ünvanda yerləşən müasir avadanlıqlarla təchiz edilmiş tədris korpusunda (Neftçilər metrosunun yaxınlığında), şəhərin mərkəzində Bəşir Səfəroğlu küçəsi, 122 ünvanda yerləşən tədris binasında və 8-ci MKR, Əcəmi Naxçıvani küçəsi, 9 ünvanda (Ayna Sultanovanın heykəlinin yaxınlığında) 3 bina və ayrıca idman kompleksindən ibarət tədris kampusunda yüksək keyfiyyətli təhsil almaq üçün hər cür şərait yaradılmışdır.

## Təhsil və karyera imkanları

Təhsildə fərqlənən tələbələr təhsillərini Amerika, Kanada, İngiltərə, Fransa, Almaniya, Hollandiya, İsveç, İtaliya, Türkiyə, Çin, Yaponiya və s. ölkələrin tanınmış universitetlərində davam etdirmək imkanı qazanırlar.

Xəzər Universitetində əsas təhsil dili ingilis dilidir. Bu, tələbələrin müasir dərsliklərdən istifadə etməsi, təhsillərini xaricdə davam etdirməsi, xaricdən gələn müəllimlərin effektli dərs deməsinə geniş imkan verir. Məzunlar və yuxarı kurs tələbələri xarici şirkətlərdə yüksək maaşlı işlərə dəvət alırlar, eləcə də dövlət təşkilatlarında və ölkəmizin qabaqcıl şirkətlərində işləmək imkanı əldə edirlər.

## Təhsil haqqının ödənilməsində güzəştlər

TQDK-nın keçirdiyi imtahanlarda yüksək bal toplayan tələbələrə aşağıdakı qaydada güzəştlər edilir. İmtahanlarda:
650-700 bal toplayan tələbələr təhsil haqqından tam azad edilir.
600-649 bal toplayan tələbələr təhsil haqqının cəmi 25%-ni ödəyir.
550-599 bal toplayan tələbələr təhsil haqqının 50%-ni ödəyir.
500-549 bal toplayan tələbələr təhsil haqqının 75%-ni ödəyir.

**Tələbələr təhsil aldıqları müddətdə əsgəri xidmətdən azaddırlar.**